Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

18 DEKABR 2019-cu il

№ 225 (4123)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# «PROSESLƏR BAKININ SSENARİSİNƏ UYĞUN GERÇƏKLƏŞİR» - PAŞİNYANIN PARTİYADAŞ DEPUTATI...

■ səh. 5 ■

Dağlıq Qarabağın azərbaycanlı icması Ermənistanı bir-birinə qarışdırdı

Prezident təsdiqlədi - büdcəmizdə nələr var...

■ səh. 10 ■

Azərbaycanda tenderlər zamanı hansı qeyri-şəffaf neqativliklər özünü göstərir - Prezident ideyanı təsadüfən qaldırmadı...

■ səh. 10 ■

Ermənistanın yeni pozuculuq taktikası - DQ-nin azərbaycanlı icması inkar olunur...

■ səh. 3 ■

Özlərini aparıcılardan sayan müxalifət partiyaları Naxçıvandan namizədlər irəli sürə bilmir...

■ səh. 3 ■

"Qarabağ klanı" Paşinyana qarşı qiyam komandası ilə birləşib baş naziri devirir

■ səh. 6 ■

Aydın Əliyev Əli Kərimlini niyə məhkəməyə verir...

■ səh. 4 ■

Azərbaycan Avrasiyanın ən əlverişli logistik mərkəzinə çevrildi - Hindistan və Çindən Finlandiyayadək...

■ səh. 11 ■

Yeni il yolka aksesuarları "ceyran belinə" qalxdı...

■ səh. 12 ■



■ səh. 8-9 ■

## Azərbaycan - Ukrayna hökumətlərarası komissiya bir neçə illik fəaliyyətsizlikdən sonra hərəkətə gətirildi

SOCAR-ın fəaliyyətinin gücləndirilməsi barədə razılıq əldə olundu



Əcnəbi oliqarxlardan seçkiyə maliyyə dəstəyi istəyən deputatlığa namizədlər...

■ səh. 4 ■



Faşist əlaltısı Njde və onun «Tseqakron» təlimi...

■ səh. 7 ■

Telefonla pensiyaçıların kart kodlarını öyrənən dələduzlar dəstəsi...

■ səh. 12 ■

■ səh. 2 ■

Mətbuat Şurasının ləğvi kimi lüzumsuz ideyanı gündəm müzakirələrinə daşıyan kimlərdir...



■ səh. 9 ■

Deputatların həm də dövlətdə, media, QHT sektorunda və s. vəzifə tutması - yeni parlament bu praktikaya son qoyacaqmı...



■ səh. 15 ■

Azərbaycan otellərində bir Yeni il gecəsinin qiyməti - Dubayı, Türkiyəni az qala 3-5 dəfə üstələyir




■ səh. 14 ■

İnvestisiyaların həcminə görə Xızı rayonu Bakını üstələdi...



■ səh. 13 ■

Təhsilimizin bakalavr və magistr pilləsində təkrar fənlər problemi - nazirin narahatlığının əsasları...





## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Ukraynanın birinci xanımı Yelena Zelenskaya ilə görüşdü...

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva dekabrın 17-də ölkəmizdə səfərdə olan Ukraynanın birinci xanımı Yelena Zelenskaya ilə görüşüb.**

Azərbaycanda səfərdə olan Yelena Zelenskaya dekabrın 17-də Heydər Əliyev Mərkəzi ilə tanış olub.

## Erməniyönümlü konqresmenlər korrupsiyaya bulaşmış "Ermənistan fondu"nu dəstəkləməkdə ittiham olundu

**ABŞ Nümayəndələr Palatasının bir sıra konqresmenlərinin "Ermənistan Fondu"nu dəstəkləməsi xarici müdaxilə ilə bağlı qalmaqala gətirib çıxara bilər. "Trend"in məlumatına görə, bu barədə "The Daily Wire" dərc olunmuş məqalədə deyilir.**

Məqalədə uzun müddət erməni lobbisini dəstəkləyən qanunvericilərin ikili standartlar mövqeyi tutması ifşa edilir.

Nümayəndələr Palatasının üzvü Adam Şiff başda olmaqla, Konqresdə Trampın impiçmenti üzrə işin araşdırılması ilə məşğul olan bir qrup qanunverici Amerika KİV-ində Tramp administrasiyasının güman edilən korrupsiyasının və başqa dövlətin rəhbərliyinin ABŞ-da seçki prosesinə cəlb edilməsinin təhqiqatı ilə bağlı "xəbərlər yaratmaqda" davam edir. Müəllif qeyd edir ki, Adam Şiff və onun həmkarları əvvəlcə "öz evlərində qayda yaratmalıdırlar":

"Belə adlandırılan Ümumerməni "Hayastan" fondu ("Ermənistan fondu") yaxın vaxtlarda keçirdiyi illik telemarafon zamanı cəmi 10 milyon dollar yığıb. Xatırladaq ki, bir il bundan əvvəl fondun direktoru Ara Vardanyan ona etibar edilmiş maliyyə vəsaitlərindən qanunsuz istifadəyə pul vəsaitlərini israf etdiyinə görə ittiham üzrə həbs edilib. Müqayisə üçün qeyd edək ki, 2018-ci ildə həmin telemarafon zamanı 11,1 milyon dollar, 2017-ci ildə 12,5 milyon dollar, 2016-cı ildə 15,4 milyon dollar, 2008-ci ildə isə 35 milyon dollar yığılmışdı. Göründüyü kimi, məbləğ azalmaqda davam edir".

Müəllif vurğulayır ki, məsələn, demokratlar Adam Şiff, Ceki Şpeyer, Frenk Pallone, Tulsi Qabbard və Bred Şerman illər boyu bu "azalan fond"un tərəfdarları və telemarafonun qonağıdırlar. Onlar hamısı Trampın impiçmentinin qızğın tərəfdarlarıdır.

Məqalədə qeyd olunur ki, bu demokratların belə fəal dəstəklədiyi "Ermənistan fondu"nun özünün ABŞ-ın daxili işlərinə xarici müdaxilədə əli var: "Ermənistan Fondu"nun problemləri artıq onun yaradıldığı andan başlanıb. 1992-ci ildə Ermənistan prezidentinin fərmanı ilə yaradılmış və 1994-cü ildə Los-Ancelesdə fəaliyyətə başlamış fond özünü "Ermənistan Respublikasının və Arsax Respublikasının ehtiyaclarına xidmət edən" və "erməni xalqı üçün daha yaxşı vətən yaratmaq məqsədilə Ermənistan xalqını bütün dünyada erməni diasporu ilə birləşdirmək missiyasını yerinə yetirən humanitar təşkilat" adlandırır. Miller qeyd edir ki, "Arsax" termini ermənilər tərəfindən Dağlıq Qarabağ - BMT-nin Ermənistanı pisləyən qətnamələrinə rəğmən erməni qoşunları tərəfindən işğal edilmiş Azərbaycan ərazisi barəsində istifadə olunur. Ermənistan Fondu Konqresdə öz tərəfdarları üçün bir növ dilemma yaradır: demokratlar bir tərəfdən impiçment prosesi zamanı prezident Trampın tərəfdaşlarını qeydiyyatdan keçməmiş xarici agentlər kimi fəaliyyətinə görə ittiham etmək və eyni zamanda, bu fakta məhəl qoymamaq istəyirlər ki, xarici hökumət tərəfindən təsis edilmiş və idarə heyətinin sədri Ermənistanın keçmiş prezidenti olan fond özü də xarici agentlərin qeydiyyatı haqqında Qanuna uyğun olaraq qeydiyyata alınmayıb"

Məqalənin sonunda müəllif yazır ki, bu qanunvericilər vəsait yığımı və lobbiçilik üzrə erməni-amerika aparatından uzaqlaşmasalar, praktik olaraq xarici təsir və prezidentin impiçmenti haqqında müzakirələrdə cəmiyyətin etimadını qazana bilməyəcəklər.

**Son vaxtlar Mətbuat Şurası ətrafında gərəksiz ziyanlı müzakirələr açılır. Bu müzakirələrlə çıxış edənlər iddia edirlər ki, guya sözügedən qurumun fəaliyyət göstərməsinə ehtiyac yoxdur. Sözügedən şuranın ləğvi ilə bağlı lüzumsuz ideya ətrafında müzakirələr açmağa çalışırlar. Yersiz formada bunu gündəmə gətirmək istəyirlər.**

# Mətbuat Şurasının ləğvi kimi lüzumsuz ideyanı gündəm müzakirələrinə daşıyan kimlərdir...

## *Müşfiq Ələsgərli: "...alternativ model ortaya qoysunlar, sonra hansısa təkliflə çıxış etsinlər"*

Hansı ki, MŞ-ni kənardan kimsə yaratmayıb. MŞ jurnalistlərin özləri tərəfindən yaradılıb. O zaman MŞ-nin yaranması üçün böyük zərurət var idi. Çünki media sahəsində bir sıra boşluqlar yaranmışdı. Həmin vaxt olduğu kimi, bu gün də MŞ-nin fəaliyyətinə, mövcudluğuna ehtiyac var. Nəzərə almaq lazımdır ki, MŞ yarandığı gündən mediada senzor rolunu oynamayıb. Əksinə, media azadlığının inkişafına xidmət edib. Vətəndaşlara ciddi mətbuatla reket mətbuatın fərqini göstərib. İllərlə reket mətbuat orqanları vətəndaşları ciddi şəkildə narahat edib, onlara bir sıra problemlər yaradıblar. MŞ yaradılandan sonra sözügedən problemlər əvvəlki illərlə müqayisədə xeyli azalıb. MŞ ötən illərdə mətbuatın, jurnalistlərin problemlərinin həlli ilə bağlı bir sıra təşəbbüslərlə çıxış edib. İndinin özündə də imkan daxilində bəzi məsələlər gündəmə gətirilir.




*"MŞ-ni qəbul etmək istəməyənlər belə müzakirələri ortalığa atırlar"*

Təbii ki, kimlərinsə guya MŞ-nin gərəksiz bir qurum olması barədə deməsi ilə bu qurum ləğv olunmayacaq. Çünki bunların heç bir tutarlı əsası yoxdur. O zaman olduğu kimi, gələcəkdə də MŞ-nin fəaliyyət göstərməsinə ehtiyac olacaq. Belə olan halda, maraqlıdır, MŞ-nin ləğvi kimi lüzumsuz ideya ətrafında müzakirələrin aparılması hansı dairələrin marağındadır?

Sözügedən məsələyə aydınlıq gətirən Mətbuat Şurası sədrinin müavini Müşfiq Ələsgərli bununla bağlı bir sıra məqamlara toxundu: "Son vaxtlar həqiqətən də belə gərəksiz fikirlər səslənir. Hesab edirəm ki, bu, "mediada islahatlar olmalıdır" deyən şəxslərin bir balaca o islahatlar barədə təsəvvürsüzlüyündən irəli gələn məsələdir. Dünyada media üzərində iki formada tənzimləmə var. Bir medianın özünü tənzimləməsidir, bir də dövlət tənzimləməsidir. Demokratik dövlətlərdə media üzərində dövlət tənzimləməsi olmur. Azərbaycan da bir demokratik ölkə olaraq Avropa Şurasına daxil olduğu ərəfədə media üzərində dövlət tənzimləyici qurumlarını ləğv edib. Yəni Mətbuat və İnformasiya Nazirliyi ləğv edilib, əvəzində medianın özünə özünütənzimləmə statusu verib. Bu özünütənzimləmə statusunun verilməsi nəticəsində Mətbuat Şurası və Milli Teleradio Şurası formalaşdırılıb. İndi kimlərsə bu şuraların fəaliyyətinin effektivliyi barədə müzakirələr aça bilər. Biz azad cəmiyyətdə yaşayırıq və hər kəs öz fikirlərini ifadə edə, iradlarını bildirə bilər. Ancaq MŞ-yə ehtiyacın olmadığını demək gərəksiz bir fikirdir. MŞ-ni qəbul etmək istəməyənlər belə müzakirələri ortalığa atırlar. Bu da alternativi olmayan bir məsələdir. Bu fikri səsləndirənlər ortalığa konkret bir model qoymurlar. Azərbaycanda dövlət tənzimləyici qurum yoxdur, özünütənzimləmə qurumu var.

Onda özünütənzimləmə qurumu da ləğv olunursa, onda nə yaradılır, biz hara gedirik və vəziyyət necə olacaq? Buna aydınlıq gətirən yoxdur. Ümumi şəkildə ayrı-ayrı şəxslərin dilindən özünütənzimləmə qurumlarının ləğvi səslənir. Bu təkliflə çıxış edənlər yaxşı olardı ki, alternativ model ortaya qoysunlar, sonra hansısa təkliflə çıxış etsinlər. Yıxmaq asandır, amma qurmaq çətindir. O baxımdan, belə yersiz müzakirələri məqbul hesab etmirəm".

***Vidadi ORDAHALLI***

# Bakı-Tbilisi-Qars xəttinin Naxçıvanla birləşdirilməsi üçün Türkiyə ərazisində 280 km xətt tikilməlidir

**Bakı-Tbilisi-Qars xəttinin (BTQ) Naxçıvanla birləşdirilməsi üçün Türkiyə ərazisində 280 km xətt inşa olunmalıdır və bunun üçün 2 mlrd. ABŞ dollara yaxın sərmayə tələb olunur.**

"Trend"in məlumatına görə, bunu "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov bu gün Yeni Azərbaycan Partiyasının qərargahında keçirilən mətbuat konfransında deyib.



C.Qurbanov bildirib ki, indiyə qədər Baki-Tbilisi-Qars dəmir yolu xətti ilə 300 min ton yük daşınıb.

Onun sözlərinə görə, hazırda bu xəttin daha intensiv işləməsi üçün işlər davam etdirilir: "Hazırda bu istiqamət Rusiya şirkətləri tərəfindən aktiv istifadə edilir.

Eyni zamanda Qazaxıstan tərəfi ilə əlavə yüklərin bu dəmir yolu xətti ilə daşınması istiqamətində işlər aparılır".

BTQ xətti ilə sərnişin daşımalarının təşkili ilə bağlı C.Qurbanov bildirib ki, bu istiqamət üzrə sərnişin qatarının sınaqı keçirilib və müvafiq sənədlər imzalanandan sonra sərnişin daşımalarına start veriləcək.

# Özlərini aparıcılardan sayan müxalifət partiyaları Naxçıvandan namizədlər irəli sürə bilmir...

**Cəmiyyətdə özlərini aparıcı sayan bir çox müxalif partiya seçkilərdə iştirak edəcəklərini bəyan ediblər. Artıq onlardan bəziləri seçkilərdə hansı namizədlərlə iştirak edəcəklərini də müəyyənləşdiriblər. Bir sıra partiyalar isə namizədlərinin adlarının açıqlanmamasını YAP-ın seçki siyahısını gözləmələri ilə izah ediblər.**




Müsavat Partiyasının sədri Arif Hacılı 78 seçki dairəsindən 81 namizəd irəli sürdüklərini öz "Facebook" səhifəsində yazıb: "Namizədlərimiz içərisində siyasət və dövlət xadimləri, istiqlalçı millət vəkilləri, müxtəlif dövrlərdə hökumət və parlament üzvü, icra hakimiyyətinin başçısı olmuş siyasətçilər, professorlar, elmlər doktorları, siyasi və vicdan məhbusları, vəkillər, hüquqşünaslar, iqtisadçılar, jurnalistlər var. Bir çox dairələrdən qadınların və gənclərin namizədliyi irəli sürülüb.

Türklərin, talışların, ləzgilərin və başqa millətlərin nümayəndələrinin daxil olduğu namizədlər siyahımız regional baxımdan da, demək olar ki, bütün ölkəni əhatə edir.

Biz xalqımızın azadlığı, firavanlığı, dövlətimizin yüksəlişi, ərazilərimizin bütövlüyü, hər kəsə bərabər imkanlar uğrunda, Azərbaycanda hüquqi dövlət, demokratik cəmiyyət yaratmaq naminə mübarizə aparırıq. Bilirik ki, bir gün həqiqət parlayacaq. Biz qalib gələcəyik!".

Göründüyü kimi, Arif Hacılı namizədlərinin bütün regionları əhatə etdiyini bəyan edir. Ancaq maraqlıdır ki, onların açıqladıqları dairələrdən bir nəfər də olsun Naxçıvandan deputatlığa namizəd irəli sürülməyib. Apardığımız araşdırmalar zamanı məlum oldu ki, partiyanın Naxçıvanda yerli strukturları fəaliyyət göstərir. Belə olan təqdirdə, böyük bir ərazidən niyə Müsavat Partiyası namizəd irəli sürmür?

Qeyd edək ki, namizədlərini açıqlayan partiyalardan biri də Azərbaycan Milli İstiqlal Partiyasıdır (AMİP). AMİP Mərkəzi Şurasının 10 dekabr tarixli iclasının qərarına əsasən, 9 fevral 2020-ci il tarixdə keçiriləcək Milli Məclisə seçkilərdə iştirak edəcək namizədlərin irəli sürülməsi ilə bağlı məsələ müzakirə edilib. Namizədlərin bir neçə mərhələdə irəli sürülməsi qərara alınıb və ilkin olaraq 11 dairədən namizədlərin irəli sürülməsi təsdiqlənib. AMİP-in açıqladığı siyahıdan da görünür ki, onlar da Naxçıvandan nümayəndə irəli sürməyiblər.

***Səxavət Soltanlı:** "Bunun həm də çox maliyyə tələb etdiyini əsas gətirərək, namizədliklərini irəli sürməkdən imtina etdilər"*

***Rəşad Bayramov:** "Naxçıvanda digər regionlardan fərqli olaraq, demək olar ki, bütün müxalif partiyaların yerli təşkilatları qərargahla təmin edilib"*

***Tamilla Qulami:** "...partiyamızın ən aktiv fəaliyyət göstərən təşkilatıdır"*

Ümid Partiyasının açıqladığı siyahıda Naxçıvandakı dairələrdən cəmi bir namizəd irəli sürülüb. Bunun səbəbini nə ilə izah etmək olar?

Müsavat Partiyasının başqan müavini Səxavət Soltanlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, doğrudan da partiya Naxçıvandan namizəd irəli sürməyib: "Naxçıvanda rəsmi olaraq siyasi fəaliyyətlə məşğul olmaq qadağan deyil. Ancaq bizim oradakı nümayəndələrin çoxu gəlib Bakıda yaşayırlar. Naxçıvanda bizim yerli təşkilatlar fəaliyyət göstərirlər. Biz təklif etdik, amma oradakı funksionerlər bunun həm də çox maliyyə tələb etdiyini əsas gətirərək, namizədliklərini irəli sürməkdən imtina etdilər".

AMİP Siyasi Şurasının üzvü Rəşad Bayramov qəzetimizə açıqlamasında bildirdi ki, onların Naxçıvandan namizəd irəli sürməməsi heç də həmin bölgədəki mühitin sərt olması ilə bağlı deyil: "Biz kəmiyyətə yox, keyfiyyətə üstünlük vermişik. Bizim Naxçıvanda güclü yerli təşkilatlarımız var. Əvvəlki seçkilərdə oradan daim namizədlərimiz olub. Bu dəfə seçkiyə fərqli taktika ilə qatılırıq. "Bütün rayonları əhatə edək" prinsipi ilə çıxış etmirik. Həmçinin, üzvlərimizə namizədliklərini irəlü sürməklə bağlı sərbəstlik də vermişik. Naxçvandakı təşkilatlarımızdan seçkidə iştirak etmək istəyən olmadı. Bunun oradakı mühitlə qəti əlaqəsi yoxdur. Əksinə, Naxçıvanda digər regionlardan fərqli olaraq, demək olar ki, bütün müxalif partiyaların yerli təşkilatları qərargahla təmin edilib".

Ümid Partiyasının sədr müavini Tamilla Qulami isə bizə bildirdi ki, onların Naxçıvanda çox güclü təşkilatları var: "Demək olar ki, partiyamızın ən aktiv fəaliyyət göstərən təşkilatıdır. Oradan da iki dairədən namizəd irəli sürəcəyik".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanın yeni pozuculuq taktikası - DQ-nin azərbaycanlı icması inkar olunur...

**"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin sədri Tural Gəncəliyev bildirib ki, son günlər Ermənistan hakimiyyətinin nümayəndələri Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ bölgəsində azərbaycanlıların guya heç vaxt yaşamadığı və bölgədə iki icmanın mövcud olmadığı haqqında əsası olmayan fikirlər səsləndirirlər:**



"Azərbaycanın torpaqlarını işğal edən, Xocalı soyqırımını törədən, işğal altındakı ərazilərdə xalqımıza məxsus mədəni, dini, tarixi abidələri məhv edən Ermənistanın ayrıseçkilik (aparteid) siyasəti aparması bu ölkənin illərdir həyata keçirdiyi ideologiyanın təzahürüdür".

Tural Gəncəliyev sonra Azərbaycan icmasının Dağlıq Qarabağda nə vaxtdan və necə yaşaması ilə bağlı ətraflı izahat verib. Təbii ki, Dağlıq Qarabağda azərbaycanlı icmasının olmadığını iddia etmək ermənilərin növbəti abırsızlığı sayıla bilər. Bütün dünyaya bəllidir ki, Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir və orada azərbaycanlıların yaşayıb-yaşamaması müzakirə mövzusu ola bilməz. Belə olan təqdirdə Tural Gəncəliyevin ermənilərin sərsəm iddiasına ətraflı izahat verməsinə bir zərurət varmı?

***Akif Nağı:** "Biz həmin sərsəm iddiaları cavabsız qoyanda..."*

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Tural Gəncəliyevin mövzuya ətraflı izahat verməsinə normal yanaşır: "Çünki Ermənistanın bütün rəsmiləri ağ yalan danışmaqla məşğuldurlar. Biz də həmin sərsəm iddiaları cavabsız qoyanda olmur. Paşinyan xaricdəki son çıxışlarından birində dedi ki, guya Azərbaycandan erməniləri böyük vəhşiliklə çıxarıblar, amma Ermənistandan çıxarılan azərbaycanlıların birinin də burnu qanamayıb. Bilirsiniz ki, azərbaycanlıların oradan hansı vəhşiliklə çıxarılmasını təsdiq edən çoxlu sayda sübut və dəlillər var. Hətta beynəlxalq təşkilatlara da məlumdur ki, oradan çıxarılanda neçə azərbaycanlı qətlə yetirilib. Bu baxımdan da ermənilərin bütün iddiaları cavabsız qalmamalıdır. 1989-cu ildə orada siyahıyaalma keçirilib. Həmin nəticələrdə ermənilər süni şəkildə rəqəmləri saxtalaşdırıblar. Orada yaşamayanları da qeydiyyata salmışdılar. Hətta həmin saxtalaşmaya rəğmən, sənəddə 40 min azərbaycanlının yaşadığı bildirilir. Amma orada 50-60 mindən artıq ermənin yaşamadığı halda, onlar bu rəqəmi çox şişirdirlər. Hazırda isə 80 min azərbaycanlı Dağlıq Qarabağdan qovulmuş sayılır. Faktiki olaraq, azərbaycanlıların sayı onları üstələyir. Bunların hamısı deyilməlidir. Son vaxtlar Qarabağın azərbaycanlı icması çox fəallaşıb. Ötən həftə Avropa parlamentinin 751 deputatına Dağlıq Qarabağdakı demoqrafik vəziyyətlə bağlı ətraflı məktub göndərdilər. Bu baxımdan da onların fəaliyyətini, cavablarını yerində sayıram".

***Məhəmmədəli QƏRİBLİ***

# Əcnəbi oliqarxlardan seçkiyə maliyyə dəstəyi istəyən deputatlığa namizədlər...

**"Palmali" şirkətlər qrupunun prezidenti Mübariz Mənsimov Azərbaycandan deputatlığa namizəd olan bəzi şəxslərin ona müraciət edərək, yardım istədiklərini bəyan edib: "Son günlər 5-6 nəfər adam dayanmadan mənə zəng edir ki, bizi dəstəkləyin, bizə Milli Məclisə seçkilərdə kömək olun və s. Əzizlərim, nə qədər demək olar ki, məni bu siyasətə, siyasi oyunlara qatmayın.**



## *Rauf Zeyni: "Xaricdən pul cəlb edib deputat olanın sabah həmin dairələrin qarşısında öhdəliyi yarana bilər ki, bu da qanunlara ziddir"*

Sizə dəstək də, sizə kömək də məndən yox, xalqdan, seçicilərdən gəlməlidir".

M.Mənsimov qeyd edib ki, həmin insanlar rüşvətlə, pulla, tapşırıqla deputatlıq mandatı qazansalar, əvvəlkilərdən heç bir fərqləri olmayacaq: "Millətin vəkili özünün yox, ilk növbədə və hər şeydən əvvəl millətin gələcəyini düşünməlidir. Bunu birdəfəlik beyinlərinizə həkk edin. Şəxsi gələcəyini, öz ailəsinin firavanlığını seçicilərinin sosial-iqtisadi durumundan üstün tutan deputatlar yenə də xalqının, millətinin düşməni olacaqlar. Bunu çəkinmədən, açıq şəkildə bəyan edirəm. Deputatlığa namizədliyini irəli sürmək hələ o demək deyil ki, sizin qarşınızda dayanan vəzifələri, problemləri layiqli şəkildə həll edə biləcəksiniz. Buna hər şeydən əvvəl mənəvi cəhətdən hazır olmalısınız, çünki təcrübə göstərir ki, "millət vəkili" mandatı alanlar sırasında yaltaqlıq və məddahlıq edərək boğazlarına qədər rüşvət və korrupsiya cinayətlərinin içində boğulanlar var. Beləleri seçicilərin onlara verdikləri, bəziləri isə pulla aldıqları səlahiyyətlərdən sui-istifadə edərək özlərindən başqa heç kimi fikirləşməyiblər və bu indi də belədir. Ona görə tövsiyəm odur ki, sələflərinizə heç bənzəməyin: nə seçicilərinizlə davranışınızda, nə də onların acgözlüyündə. Gözəl, savadlı, bacarıqlı, zəhmətkeş xalqım 2020-cu il fevralın 9-da tamamilə fərqli Milli Məclis formalaşdıra bilər. Bu, xalqımın, millətimin, mənim hüququmdur. Əlbəttə, mən də qeydiyyatda olduğum, "vosmoy" kimi tanınan 8-ci kilometr ərazisində deputatlığa namizədliyini irəli sürən şəxslərlə bağlı öz seçimimi edəcəm. 9 fevral seçkilərinə dəstəyim yalnız və yalnız bundan ibarət olacaq. Başqa dairələrdən namizədləri onların seçiciləri dəstəkləməlidir. Bir sözlə, məndən "başqa" dəstək gözləyənlərə bir daha bildirmək istəyirəm ki, seçkilər pulla həyata keçirilən bir iş deyil. Əgər belə düşünürsünüzsə, xalqı, seçiciləri aldatmayın. Kənara çəkilin ki, təmiz, saf, milləti üçün böyük işlər görə biləcək insanlar irəli dura bilsinlər. Böyük Azərbaycan xalqı ən gözəl yaşamağa layiqdir".

Çox maraqlı situasiya yaranıb. Bildiyimiz kimi, Mübariz Mənsimov azərbaycanlı olsa da, başqa ölkənin vətəndaşıdır. Əcnəbi vətəndaşlığı olan bir milyarderdən seçkiyə dəstək istəmək nə dərəcədə doğrudur? Nəzərə alsaq ki, ondan siyasi yox, maliyyə dəstəyi istənilə bilər, bu, həmin namizədi həm də xarici ölkə vətəndaşı qarşısında asılı duruma sala bilərmi?

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, seçki kampaniyası bizim qanunvericiliyimizə uyğun şəkildə aparılmalıdır: "Hər bir insan üçün müvafiq şərait yaradılıb. Bu seçkilərin daha demokratik keçəcəyi ilə bağlı ümidlər artdığından, namizədlərin sayının çox olacağını təxmin etmək mümkündür. Təbii ki, onların içində layiqli olanlarla yanaşı, həmin parametrlərə cavab verməyənlər də az deyil. Onlara da kimsə seçkidə iştirak etmək niyyətlərini qadağan edə bilməz. Təbii ki, belə təsadüfi namizədlərin sırasında qanunları yaxşı bilməyənlər də az deyil. Məhz buna görədir ki, onlar gedib xaricdən vəsait axtarırlar. Sizi əmin edim ki, bəziləri isə bu kampaniyaya məhz cüzi də olsa hardansa vəsait əldə etmək üçün qoşulublar. Bilirlər ki, seçilmək şansları yoxdur, sadəcə, bu cəzbedici adla irəli düşmək istəyirlər. Kimin necə kampaniya aparması da qanunlar çərçivəsində olmalıdır. Mən inanmıram ki, hansısa ciddi namizəd belə təşəbbüs göstərsin. Çünki xaricdən pul cəlb edib deputat olanın sabah həmin dairələrin qarşısında öhdəliyi yarana bilər ki, bu da qanunlara ziddir. Mən belə niyyətləri pisləyirəm. Yalnız daxili resurslara güvənib seçki kampaniyasını aparmaq gərəkdir".

***Məhəmmədəli QƏRİBLİ***

# Aydın Əliyev Əli Kərimlini niyə məhkəməyə verir...

**Azərbaycan Xalq Cəbhəsi Partiyasının Nəzarət-Təftiş Komissiyasının keçmiş sədri Aydın Əliyev partiyanın sədri Əli Kərimliyə qarşı Nəsimi Rayon Məhkəməsində iddia qaldırıb. Artıq məhkəmə hazırlıq iclası da keçirilib.**



A.Əliyev iddia ərizəsində Əli Kərimlinin partiyaya daxil olan ianə və digər pulları mənimsədiyini, ancaq öz nəzarətində saxladığını, bu pulları özünün, ailəsinin və xaricdə yaşayan övladlarının ərəb şeyxlərinin övladları kimi yaşamasına sərf etdiyini, yüzlərlə cəbhəçini aldatdığını, hər birindən öz şəxsi mənafeyi üçün istifadə etdiyini, antidemokratik hərəkətlərinə etiraz edənləri ləkələdiyini, böhtanlara məruz qoyduğunu və partiyadan uzaqlaşdırdığını, partiyada sərt diktatura rejimi qurduğunu bildirib, Əli Kərimlini dələduz adlandırıb.

O daha sonra Ə.Kərimlinin gəncləri də aldadaraq özünün çirkin oyunlarına qurban vermək istədiyini, bir çoxunun onun antidemokratik, qanunsuz, partiyanın nizamnamə və məramnaməsinə zidd əməllərindən xəbərdar olduğunu, lakin bunları dilə gətirməkdən çəkindiyini qeyd edib.

A.Əliyev, həmçinin, Ə.Kərimli tərəfindən vəzifə səlahiyyətlərinin həyata keçirilməsinə imkan verilmədiyini, onun Nəzarət-Təftiş Komissiyası haqqında Əsasnamənin tələblərini kobud şəkildə pozduğunu qeyd edib və komissiyanın sədri vəzifəsini icra etməyə maneçilik törətməsinin aradan qaldırılması barədə qətnamə çıxarılmasını xahiş edib.

İndiyə qədər Ə.Kərimliyə qarşı öz partiyadaşları tərəfindən müəyyən tənqidlərin səsləndiyinin şahidi olmuşuq. Ancaq uzun müddət partiyanın mühüm strukturuna rəhbərlik etmiş və kifayət qədər fəal olan bir cəbhəçinin öz sədrini məhkəməyə verməsi halına ilk dəfədir rast gəlirik. Bu nəyin əlaməti sayıla bilər?

Qərara aldıq ki, bu məsələyə neytral bir partiya rəhbərinin mövqeyini öyrənək. Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, sözügedən proseslə yaxından tanışdır: "Mən A.Əliyevi şəxsən tanımıram. Ancaq uzun müddətdir onun fəaliyyətini sosial şəbəkələrdən izləmək imkanım olub. Çox fəal, əqidəli cəbhəçi təsirini bağışlayıb. Daim onun aksiyalarda iştirak etdiyinin şahidi olmuşam. Özü də öndə gedirdi. Bunları ona görə xatırladıram ki, həmin adamın təsadüfi persona olmadığını nəzərinizə çatdıra bilim. Bundan əlavə, onun partiyada tutduğu vəzifəyə diqqət edək. Partiyanın NTK-sı çox mühüm qurumdur və qurultayda seçilir. Necə ki, partiyanın sədri qurultayda seçilir, həmin qurum da eyni olaraq qurultaydan mandat alır. Bu isə o deməkdir ki, A.Əliyev AXCP üzvlərinin böyük əksəriyyətinin səsini almış, onların rəğbətini qazanmış adam olub. Bu statusda olan şəxs həm də partiyanın daxili mətbəxinə yaxşı bələddir. Onun konkret olaraq məhkəməyə müraciət edib, partiya sədrindən maliyyə arayışları tələb etməsi də təsadüf sayıla bilməz. Görünür, partiya daxilindəki mühit ona bu imkanı verməyib. Nəticədə o məcbur qalıb ki, məsələnin hüquq müstəvisində həllinə nail olsun. Şikayətin məğzində diqqəti daha çox Ə.Kərimliyə partiyaya ayrılan pulların, verilən ianələrin hesabatının tələbi diqqəti çəkir. Zaman-zaman Ə.Kərimli bu ittihamlara məhkəmədə olmasa da, ictimai rəydə tuş gəlib. Doğrudan da əksər funksioneri heç bir yerdə işləməyən partiyanın haradan maliyyələşməsi böyük sual doğurur. Normal məhkəmə dartışması olsa, Ə.Kərimli bütün bu iddiaları cavablandırmağa borcludur. İstənilən halda, bu vəziyyət partiyanın nüfuzu üçün yaxşı nəsə vəd etmir".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az




# "Proseslər Bakının ssenarisinə uyğun gerçəkləşir" - Paşinyanın partiyadaş deputatı...

*Dağlıq Qarabağın azərbaycanlı icması Ermənistanı bir-birinə qarışdırdı*

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan və Ermənistan rəsmiləri arasında baş tutan son danışıqlar ətrafında işğalçı ölkədə bir ajiotaj yaranması aydın müşahidə olunur. Belə görünür ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin dekabrın 4-də Bratislavada keçirilən 4 saatlıq görüşü İrəvanda hələ uzun müddət ciddi müzakirə predmeti olaraq qalacaq.**

Xüsusən də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Ermənistan tərəfinin "Lavrov planı"nı təqdim etməsi ilə bağlı son fikirləri ətrafında işğalçı ölkədə başlanan müzakirələr bunu kifayət qədər aydın nümayiş etdirir. Xüsusən də bu plan əsasında Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının maraqlı tərəf kimi danışıqlar prosesinə mümkün cəlbi düşmən ölkədə böyük narahatlıq və gərginlik yaradıb.

Belə bəlli olur ki, Bratislavada "Lavrov planı" ətrafında müzakirələr olub. Həmin plan isə zəbt edilmiş ərazilərin tədricən Azərbaycana qaytarılmasını özündə ehtiva edir. Azərbaycan tərəfi bu xüsusda açıqlama versə də, Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan bununla bağlı susub. Əvəzində onun sözçüsü Anna Nağdalyan "masada konkret olaraq heç bir sənədin müzakirə edilmədiyini" açıqlayıb. Lakin əsas sual nazirlərin 4 saata yaxın müddətdə nəyi müzakirə etməsidir. Ermənistanda narahatlıq yaradan məqam da budur. Ermənistanın "Qraparak" nəşri bu xüsusda yazır: "Danışıqlarda proseslər heç də Ermənistanın lehinə deyil. Ermənilər emosional millətdir, bəzən emosiyalarımız bizə ağıllı və müdrik qərarlar qəbul etməyə imkan vermir". Qeyd olunur ki, baş nazir Nikol Paşinyan Qarabağda anlaşılmaz məqsədlə təşkil olunmuş mitinqdə alovlu çıxış etdikdə, hamı onun "Qarabağ Ermənistandır, vəssalam" çıxışından təsirləndi: "Lakin günlər keçdi və məlum oldu ki, emosional, qulağa xoş gələn bəyanat diplomatik səhv imiş. Bu barədə Rusiya və Azərbaycan xarici işlər nazirləri də danışıb. Erməni tərəfi öz nazirinin dili ilə Qarabağın "müstəqilliyi" barədə danışırsa, baş nazir də "Qarabağ Ermənistandır, vəssalam" deyirsə, onda Paşinyan nəyin ətrafında danışıq aparıb? Deməli, onların dediyi sadəcə quru sözlərdir. Real proses başqadır". "Adekvat" müxalif ictimai birliyinin rəhbəri Artur Danielyan bildirib ki, Azərbaycanın istəyi əsasında artıq Nikol Paşinyan Qarabağın azərbaycanlı icmasının danışıqlarda iştirakına müsbət yanaşır: "Bu onu deməyə əsas verir ki, münaqişənin həlli ilə bağlı proseslər gedir, lakin bunu ictimaiyyətdən gizlədirlər, əvəzində müxtəlif manipulyasiyalarla ictimai fikri yanlış yerə yönəldirlər. Hesab edirəm ki, hakimiyyət Ermənistanın əleyhinə olan razılaşmaya gedəcək. Bu proseslə bağlı uzun müddətdir mediada təbliğat aparılır. Əslində, Paşinyan Qarabağın danışıqlarda iştirakı qarşılığında Qarabağın azərbaycanlı icmasının cəlb olunmasına razılıq verib və onu legitimləşdirib. Bütün bunları gizlətmək üçün həm şəxsən Paşinyan, həm Ermənistan Xarici İşlər Nazirliyi, həm də xarici agentlik şəbəkəsi böyük və nəticəsiz səylər göstərdi. Ermənistan vətəndaşları artıq Nikolun kimin əlinin işi olduğunu başa düşməyə başlayırlar, onlar həmçinin bunun məqsədinin nə olduğunu anlamağa başlayırlar. Əlbəttə, hazırda hər şey öz ssenarisi ilə gedir. Nikol öz "bacarıqlı" məsləhətçilərinin köməyi ilə axmaq-axmaq danışaraq Azərbaycana beynəlxalq ictimaiyyətə daha bir dəfə çıxmaq imkanı verir".

Respublika Partiyasının nümayəndəsi Armen Aşotyan qeyd edir ki, mövcud hakimiyyət qəsdən belə addımlar atır: "Bu gün iddia edirlər ki, danışıqların məzmunu və itkilər bizdən "miras" qalıb. Xeyr, bu əvvəllər də belə idi. Bu gün Ermənistanın siyasi səhnəsində disbalans böyük problemdir. Paşinyan güclü müxalifət olmadığı üçün əlverişsiz danışıqlardan imtina etmir. Bu məsələnin həlli üçün növbədənkənar parlament seçkiləri keçirmək lazımdır". Digər erməni politoloq Ervand Bozoyan isə məsələ ilə bağlı "Sputnik Armeniya" portalına bildirib: "Qarabağ məsələsində heç bir əhəmiyyətli şey baş vermədi. Müxalifət hakimiyyəti "torpağı vermədə" ittiham edirdi və əksinə, hakimiyyət dəyişikliyindən sonra əvvəlkilər bunda yeni rəhbərliyi günahlandırır. Bu, Qarabağın hesabına xal qazanmağa çalışdıqları köhnə erməni uşaq oyununu xatırladır".

Politoloqun fikrincə, Ermənistanda insanların çoxu bu oyunun ətalətlə davam etdiyini və reallıqla heç bir əlaqəsinin olmadığını başa düşür: "Hər kəs, o cümlədən vasitəçilər başa düşürlər ki, bu mərhələdə ortaq məxrəc tapmaq, demək olar ki, mümkün deyil. Nə qalır? Danışıq üçün danışıq aparmaq? İstənilən müharibə mövcud "soyuq" sülhdən daha pisdir. İkincisi, tərəflərin gələcəkdə bu və ya digər qərara nə dərəcədə hazır olduqlarını tədqiq etmək. Həmsədrləri maraqlandıran məhz budur. Ermənistanın yeni hakimiyyəti sıfırdan başlayacaqlarını, cəmiyyətin gözündə xal qazanmağa çalışdıqlarını söyləyirsə, bu müəyyən bir təhlükə yaradır.

Ermənistanın yeni hakimiyyətinin həyata keçirilməyən və uzağı görməyən bəyanatları daxildə müsbət qarşılandı, ancaq xarici aləmdə dağıdıcı təsir bağışladı. Daha sonra Paşinyan bildirdi ki, həll yolu Ermənistan, Qarabağ və Azərbaycan üçün məqbul olmalıdır. Bu cür uyğunsuzluq təkcə baş nazirin özünə deyil, bütövlükdə Ermənistana olan münasibətə təsir göstərir. Məhz belə vəziyyətdə Azərbaycan Qarabağın Azərbaycan icmasını yenidən hərəkətə gətirməyə çalışır. Ermənistan hakimiyyəti, əlbəttə ki, bunu istəmir. Ancaq peşəkar olmayan hərəkətlər və bəyanatlar buna aparır. Gələcəkdə yeni belə bir-birinə zidd bəyanatların ortaya çıxması Azərbaycanın mövqeyini gücləndirəcək... Və ya Bakı tərəfindən blitskriq cəhdi halında ona mümkün xarici təzyiqi azalda bilər. Məhz belə vəziyyətdə gündə biri durub bir "sərsəmləmə" danışır, media sahəsi bunu müzakirə etməyə başlayır, Qarabağın son danışıqlar məsələsi, Qarabağın azərbaycanlı icması ideyasını erməni sahəsinə daxil etmək, baş verən geosiyasi tendensiyalar və iqtisadi problemlər müzakirə olunmur. Biz Azərbaycana uduzuruq".

Qeyd edək ki, Ermənistan parlamentinin xarici əlaqələr daimi komissiyası sədrinin müavini, "Mənim addımım" fraksiyasının deputatı Ovhanes İgidyan jurnalistlərlə görüşərkən qeyd edib ki, Paşinyan danışıqlara Azərbaycan prezidenti ilə birgə Qarabağın azərbaycanlı icmasını təmsil edən şəxslərin də gəlməsində bir problem görmür. Düzdür, Paşinyanın bu mövqeyi Ermənistanda sərt tənqid hədəfinə çevrilsə də, əslində hüquqi cəhətdən Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının prosesdə iştirakı tamamilə qanuni və zəruridir. Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev bunu belə izah edir: "Birinci, 24 mart 1992-ci il tarixində ATƏT-in Helsinki Nazirlər Şurasının sənədində əks olunan Dağlıq Qarabağın seçkili və digər nümayəndələri, məhz Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hər iki, yəni erməni və azərbaycanlı icmalarını nəzərdə tutur və onlar maraqlı tərəflər qismində qeyd olunur. Bu sənəddə Dağlıq Qarabağa ayrıca tərəf kimi istinad edilmir. İkinci, 1 dekabr 1989-cu ildə Ermənistan SSR Ali Soveti Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsi haqqında qanunsuz qərar qəbul etdikdən sonra 10 yanvar 1990-cı il tarixində SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin "qərarlarının" SSRİ Konstitusiyasına uyğun olmamasını qeyd edərək, Ermənistanın Dağlıq Qarabağa yönəlik qanunsuz ərazi iddialarına son qoyur. Üçüncü, BMT, digər beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Ermənistan tərəfinə ATƏT-in Minsk Qrupunun həmsəsrlərinin bəyanatlarını və müvafiq sənədləri öyrənməyi tövsiyə edirəm". Gəncəliyev bildirib ki, Ermənistan hakimiyyəti Azərbaycana qarşı işğal siyasətinə son qoyarsa, Azərbaycanın Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərindən qovulmuş yüzminlərlə azərbaycanlının mövcudluğunu inkar etməzsə, iki icmanın bərabərhüquqlu icmalar olaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində sülh şəraitində birgə yaşamasına mane olmazsa, münaqişənin həlli mümkün ola bilər.

Yaranmış vəziyyətdə Ermənistanda hesab olunur ki, Azərbaycan tərəfi istəyinə mütləq şəkildə çatacaq. Dağlıq Qarabağda qanunsuz yaradılmış qondarma rejimin təmsilçilərindən biri olan Vitali Balasanyan bu xüsusda bildirir: "Nikol Paşinyan bəzən absurd, bir-birini təkzib edən fikirlərlə çıxış edir.

O gah deyir ki, "Qarabağ Ermənistandır", gah da deyir "Qarabağ üçüncü tərəf kimi danışıqlarda iştirak etməlidir". Bunun təzahürü cari il dekabrın 10-da Ermənistan parlamentinin xarici əlaqələr üzrə daimi komissiyasının sədr müavini, "Mənim Addımım" fraksiyasının deputatı Ovhannes İgidyanın dili ilə ictimailəşdi.

Sonuncu bildirdi ki, Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həll danışıqlarında Dağlıq Qarabağın azərbaycanlı icması nümayəndələrinin Azərbaycan prezidenti ilə birlikdə gəlməsinə qarşı deyil. Belə vəziyyətdə Paşinyanın ümumiyyətlə nə etmək istədiyini başa düşmək olmur. Hazırda bütün proseslər Bakının ssenarisinə uyğun gerçəkləşir. Paşinyanın Azərbaycan hakimiyyəti qarşısında acizliyi artıq açıq-aydın görünür. Belə getsə, mən və mənim ardımca gedəcək insanlar rəsmi İrəvana qarşı çıxacağıq".

Qeyd edilənlər bir daha son Qarabağ danışıqlarının Ermənistanda hansı effekt yaratdığını aydın nümayiş etdirir və proseslərin Azərbaycanın maraqları çərçivəsində cərəyan etdiyini göstərir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**"Qarabağ klanı" ilə Nikol Paşinyan iqtidarı arasında hələ də ciddi savaş getməkdədir. Düzdür, ötən müddət ərzində Paşinyan klanın mövqeyini xeyli sarsıda bilib. Amma hələ də Azərbaycanın işğal edilmiş ərazilərindəki rejim üzərində tam nəzarəti bərpa edə bilməyib.**

# "Qarabağ klanı" Paşinyana qarşı qiyam komandası ilə birləşib baş naziri devirir



Əksinə, separatçı rejimin nümayəndələri Paşinyanı indi getdikcə daha çox hədələyirlər. Xüsusilə bu rejimdə "hərbi vəzifə" tutmuş Vitali Balasanyan Paşinyana qarşı qiyam təşkil edə biləcəklərini açıq bəyan edir.

Belə bir vaxtda bəlli olub ki, "Qarabağ klanı"nın Ermənistan təmsilçiləri də separatçı rejimlə sıx işbirliyindədir. Eyni zamanda, onlar Ermənistan daxilində siyasi cəhətdən də yenidən təşkilatlanır. Artıq bu fonda məlum olub ki, həbsə atılan Ermənistanın eks-prezidenti Robert Köçəryan yeni partiya yaratmağa da hazırlaşır. Eks-prezidentin oğlu Levon Köçəryan atasının Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri Artur Vanetsyanla əməkdaşlıq etmək ehtimalının da olduğunu bildirib. Robert Köçəryan özü isə iddia edir ki, artıq Ermənistandakı siyasi proseslər yekunda növbədənkənar seçkilərlə başa çatacaq. O, artıq cəmiyyətin reallığı olduğu kimi qəbul etdiyini bildirib: "Bu, Paşinyanın populyarlığının sürətlə itməsini və hər şeyin növbədənkənar seçki ilə bitəcəyini əminliklə deməyə əsas verir. Bunun gələn il baş verməsi ehtimalı həddən artıq yüksəkdir və hər şey müxalifətin qətiyyətindən asılıdır".

Ermənistanın "İrates" nəşri isə yazır ki, Paşinyanın komandasında yer alanların bir çoxu da artıq baş nazirə qarşı olanlarla bir sırada yer almaq niyyətindədir:"Elə bu səbəbdəndir ki, dekabrın 12-də Ermənistan hökumətinin iclası zamanı Paşinyan bildirib ki, dövlət idarəetmə sistemi inqilaba müqavimət göstərir. Əslində, nəinki bütün sahələrdə "inqilab"ın başa çatması, həmçinin dövlət sisteminin fərqli bir məntiqlə işləməyə başlaması İsa və Roma papasına çevrilmiş Paşinyanı narahat edir. "Mənim addımım" fraksiyasında olduğu kimi, idarəetmə dairələrində də Paşinyanın tərəfdarları yoxdur". Erməni siyasi şərhçi Aram Amatuni də məsələyə bu prizmadan nəzər salaraq bildirir: "Hakimiyyət dəyişikliyindən sonra Ermənistanda formalaşan hakimiyyət bir kollektivlikdir, bəzən bir-birinə zidd olan elementlər toplusudur". Onun sözlərinə görə, qəribə görünsə də, Ermənistanda hökumətin formalaşması prosesində hazırda müxalifətin formalaşması məsələsi daha da aktuallaşıb:"Müxtəlif subyektiv və ya substantiv səbəblərə görə müxtəlif vəzifəli şəxslər işdən çıxarılır, hətta bəzən ittiham olunaraq həbs edilir, dünənki qəhrəmanlar anti-inqilabçılara çevrilir və sair. Bununla yanaşı, Ermənistanda hakimiyyətin süzgəcdən keçməsi, sözdə "kristallaşması" prosesi hava və su kimi müxalifətin mövcudluğunu zəruri edən bir mərhələyə çatıb. Bu vəziyyətdə müxalifət güzgü və ya bir "rentgen" olacaq, burada hökumət öz imicini daha aydın görməli, qiymətləndirməli, lazımi nəticələr çıxarmalıdır.

Ermənistanda ən zəif problem həll olunmayıb, müxalifət yoxdur, çox sərt, çox kəskin tənqid var, amma müxalifət yoxdur. Sadəcə tənqid müxalifət deyil, əks halda tənqidçi hər hansı bir media orqanı və ya ekspert siyasi müxalifət sayılardı. Beləliklə, Ermənistanda hökumətin nə olduğunu göstərmək üçün əyri olub-olmadığını qiymətləndirə biləcək bir güzgü belə yoxdur. Amma Köçəryanın yenidən siyasətə atılması vəziyyəti dəyişə bilər. Bax onda Paşinyanın ciddi çətinlikləri üzə çıxacaq. Çünki Paşinyanın komandasında yer alanların çoxu Köçəryanın tərəfinə keçə bilər".

Erməni politoloq Armen Badalyan isə bildirir ki, Paşinyanın davranşıları onun komanda üzvlərini də bezdirib. Onun sözlərinə görə, Ermənistan Respublika Partiyasının artıq bir ildən çoxdur hakimiyyətdə olmamasına baxmayaraq, Ermənistan hələ də investisiyalara malik deyil: "Bu durumda Paşinyanın reytinqinin düşməsi təbiidir. Belə vəziyyətdə Paşinyan vəziyyəti lehinə dəyişdirmək üçün yeni düşmənlər axtarır. İndi bu "düşmən" rolunda hüquq-mühafizə sistemi çıxış edir. Hüquq-mühafizə sistemi deyəsən yenidən investisiyalara "mane olur". Baş nazir daim "düşmən"lərin axtarışındadır. "Düşmən" hər zaman dəyişə bilər, diqqət etsəniz, bu 1,5 il ərzində çox dəyişib". Onun sözlərinə görə, hüquq-mühafizə sisteminin bütün rəhbərlərini Paşinyan təyin edib. Badalyan qeyd edib ki, Ermənistanın polis rəisi və Milli Təhlükəsizlik Xidmətinin direktoru vəzifələrini müvəqqəti icra edən şəxslər Paşinyanın istədiyi adamlardır, lakin bu halda belə korrupsiyaya qarşı mübarizədə uğur qazanılmır, bunun səbəbi isə məsələyə məzmunlu yanaşmanın olmamasıdır: "Qırmaq, əzmək, divarı suvamaq, döşəməni suvamaq, dövlət aparatını parçalamaq baş nazirin yanında yaxşı alınır, hə, bunu etmək asandır, bəs sonra bərpa edə biləcək? Deyəsən, onun təsəvvürləri yalnız bu barədədir, yaxşı olardı ki, bütün bunların əvəzinə ölkənin inkişafı üçün baxış təqdim etsin. Bu yoxdur və Paşinyanın qəzəbinə tuş gələn məmurlar keçmiş hakimiyyəti istəyirlər. Məhz bu fonda da ölkədə yeni hakimiyyt çaxnaşması tamamilə gözlənilləndir".

"Aykakan Jamanak" qəzeti isə yazır ki, belə vəziyyətdə Paşinyanın Ermənistanın digər keçmiş prezidenti Serj Sarkisyanı həbsə atmaq niyyəti "Qarabağ klanı"nı daha tez müddətdə baş nazirə qarşı qəti hərəkətə keçməyə sövq edə bilər.

**Xatırladaq ki, dekabrın 4-də Serj Sarkisyana qarşı ittiham irəli sürülüb. O, 2013-cü il yanvarın 25-dən 7-dək bir qrup məmurdan 1 milyon dollardan çox maddi vəsait mənimsəməkdə ittiham olunur. Amma hesab edilir ki, bu yalnız Sarksiyanı həbsə atmaq üçün əsasdır. Bununla Paşinyan "Qarabağ klanı"nı tam zərərsizləşdirmək istəyir. Klan isə, öz növbəsində, Paşinyan komandasında narazı fiqurlardan istifadə edib baş nazirə qarşı daha sərt həmlə etməyi düşünür.**

***Nahid SALAYEV***

**Son** vaxtlar mətbuatın da gündəmində olan Qaregin Njde adı çoxlarında maraq doğurdu. Ermənistanda "erməni dövlət xadimi" adlandırılan bu hərbi cinayətkara İrəvanda heykəl qoyulması və bu ənənənin Rusiyanın Armavir şəhərində də davam etdirilməsi ciddi təpkilərlə qarşılandı.

# Faşist əlaltısı Njde və onun "Tseqakron" təlimi...

*Biz niyə ona qarşıyıq, erməniləri hara yönəldir? - kimi sualların cavabları vəziyyətin qorxunc taleyi haqqında daha aydın fikirlər yaradır*



MDB Dövlət Başçılarının Aşqabad sammitində Azərbaycan Prezidenti İlham Əliyev İrəvanda erməni faşizminin banisi Qaregin Njdeyə heykəl qoyulmasını, nasistlərlə əlbir olan birisinin qəhrəmanlaşdırmasını pisləməsi də diqqətdən yayınmadı. Nikol Paşinyanın İlham Əliyevi erməni xalqına hörmətsizlikdə, məlum tarixi faktları və rəsmi sənədləri Azərbaycan prezidentinin şəxsi rəyi kimi təqdimatda günahlandırmaq cəhdini rus ictimaiyyəti həmən cavablandırdı. Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradov nasist havadarı Njdenin xatirə lövhəsinin üstünü qara rənglə boyadı və az sonra xatirə lövhəsi söküldü. Rusiyalı hərbi ekspert İqor Korotçenkonun "Beynəlxalq hüquq normaları və tarixi gerçəklik baxımından Qaregin Njde hərbi cinayətkar və nasistlərin əlaltısı olub. Mən cənab Paşinyana Rusiya Federasiyası Müdafiə Nazirliyinin baş redaksiya komissiyası tərəfindən nəşr olunan 12 cildlik "1941-1945-ci illər Böyük Vətən Müharibəsi" ensiklopediyasını oxumağı tövsiyə edərdim" deyimi isə yetərincə arqumentli cavab idi.

Bu baxımdan Egey Universitetinin professoru Aydın İbrahimovun hələ 2010-cu ildə Türkiyədə dərc olunmuş yazısı da diqqətçəkən oldu. Njdenin "Tseqakron" (qatı millətçi, faktiki faşist ideologiyasına malik təşkilat) ideoloji təliminin mahiyyətini açıqlayan bu yazını Egey Universiteti Türk Dünyası Araştırmaları İnstitutunun dosenti Vəfa Kurban Azərbaycan dilinə çevirərək 9 il sonra yenidən gündəmə gətirib. Yazını təqdim edirik:

1930-cu illərdə Bolqarıstandan ABŞ-a gedən və erməni millətinin qəhramanı sayılan Qaregin Njde (Ter-Arutyunyan) tərəfindən yaradılmış ideoloji təlimə "Tseqakron" adı verilmişdi. Njdenin əsas məqsədi ana köklərindən uzaqlaşan erməni diasporası və xüsusilə də gəncləri sözügedən ideologiya ətrafında yenidən səfərbər edərək Türkiyəyə qarşı bir hərəkat meydana gətirmək idi. Tezislərimizi əsaslandırmaq üçün 2004-cü ildə Ermənistanda nəşr olunan "Qaregin Njdenin təlimi" kitabını nəzərdən keçirərək şərh edəcəyik.

Daşnak təşkilatının üzvü olmuş erməni komandir Qaregin Njde 1922-ci ildə Təbrizdən dönərək Sofiyada yerləşir və türklər əleyhinə ilk yazılarını da bu tarixdən başlayaraq nəşr etdirməyə başlamışdı: "Lernhayastanın Qəhrəman Müqaviməti" (Buxarest, 1923), "Gündəliyimdən səhifələr (Qahirə, 1924)", "Övladların atalarına qarşı mübarizəsi (Selanik, 1927)" və s. Həmin dövrdə və daha sonrakı illərdə Njde daşnaklar tərəfindən buraxılan "Hayastan" (Plovdiv), "Araks" (Sofiya), "Azatamart" (Paris) kimi müxtəlif jurnal və qəzetlərdə aktiv rol almışdı. Bütün yazılarının tək hədəfi türklər və Türkiyə; tək məqsədi də xarici ölkələrə dağılmış ermənilərdə türklərə və Türkiyəyə qarşı genetik bir nifrət aşılamaq idi. Bu sözdə "nəzəriyyəçi" bir müddət sonra erməni milliyətçi nəzəriyyəsini ortaya ataraq Mussolini və Hitler kimi soydaşları sırasında ad qazandı. Njde 1932-ci ildə Bolqarıstanda nəşr etdirdiyi "Soy Ruhunun Hərəkatı" kitabı və daha sonra "Xrofk" jurnalında çıxan "Tseqakron bir zəfər gücüdür" adlı məqaləsi ilə erməni nasional-sosializminin əsaslarını ortaya qoydu.

1933-cü ildə Parisdə daşnakların 12-ci konqresində Njde tərəfindən təqdim edilən Erməni diasporunun antitürk ruhlu təlimatları üç əsas prinsipi ehtiva edirdi və konqresin yekun bəyannaməsində yer almışdı. Bunlar

1. Erməniliyin xaricdə funksional fəaliyyətini genişləndirərək, onu Ermənistanı müdafiə qabiliyyəti durumuna gətirmək,

2. Erməni gəncliyinin partiyadan kənar fəaliyyətini gücləndirmək,

3. Bütün gücləri Türkiyəyə qarşı bir cəbhədə səfərbər etmək.

Bu tezisləri həyata keçirmək üçün 1933-cü ildə Njde partiya tərəfindən ABŞ-a göndərilmişdi. Orada Njdeyə iki tapşırıq verilmişdi. Birincisi, erməni terrorçu Kopernik Tandırçyanla birlikdə Türkiyənin ABŞ-dakı səfiri Muxtar bəyə sui-qəsd etmək, ikincisi isə qısa müddət içərisində ABŞ-da "Tseqakron hərəkatı"nı yaratmaq. Fanatik düşüncə, güclü xitab qabiliyyəti və olduqca təsirli bir xarizmaya sahib olan Qaregin Njde qısa müddətdə ermənilərin sıx yaşadığı yerlərdə "Tseqakron" təşkilatları (Tsexakron Uhter) qurdu.

Njde 1934-cü ilin payızında Sofiyaya qayıdır və "Tseqakron"un Avropada qurulmasına başlayır. Yaxınlaşan dünya müharibəsi ərəfəsində müxtəlif mediya orqanları vasitəsilə erməniləri Türkiyəyə qarşı silahlı hücumlar təşkil etmələri üçün ideoloji cəhətdən hazırlayır və cəmiyyət olaraq təmiz bir irqə yönəlmənin yolunu göstərirdi. Lakin Avropadakı vəziyyət Amerikadan fərqli idi; müharibə gərginliyi son həddindəydi və əhatə dairəsi də olduqca dar idi. 1945-ci ildən sonra isə hərəkat zəiflədi və tarixə kömülmüş kimi göründü. Ancaq 1991-ci ildən günümüzədək Njdenin təlimi yenidən aktivləşdi və hətta qonşu Ermənistanın rəsmi ideologiyası halına gəldi.

İndi isə "Tseqakron nədir", "Biz niyə ona qarşıyıq", "Erməniləri hara yönəldir" kimi suallara cavab verilməlidir. Əslində bu cavablar vəziyyətin qorxunc taleyi haqqında daha aydın fikirlər yaradır. 1932-ci ildə Sofiyada çap edilən "Xrofk" jurnalında Njde yazırdı: "Bu günə kimi millətimizin yaşadığı əzabların tək səbəbi irqimizin formalaşmamasıdır, biz erməniyik və ermənilik ideologiyası ətrafında toplanmalıyıq, yoxsa bəşəriyyətin ən əzilmiş parşası halına gələrik". Belə bir düşüncə tərzinə sahib olan Qaregin Njde ortaya bir düşüncə və "beyinyuma" üçün material qoymalı idi. İkisi də tapılmışdı: konsept: TÜRK DÜŞMƏNÇİLİYİ; material: TSEQAKRON.

Njde faşist əsaslar üzərində formalaşdırılan nəzəriyyəsini əsas olaraq gənclərə və diaspora yönəltmişdi. Njdeyə görə, erməni cəmiyyətində, xüsusilə də yaşlı nəsildə Türkiyəyə qarşı olan şüur zəifləmişdi; eyni meylin gənc nəsildə də inkişafı milli bir təhlükədir. Bu səbəbdən bütün gənc erməni nəslinə "Tseqakron" ideyası aşılanmalıdır. Təlimin əsasını da ermənilərin xüsusi (özəl) irq olması və fərqli düşüncə tərzinə sahip olduqları fikri təşkil edirdi. Erməni soyu Njde üçün ən vacibi idi; dindən və antropologiyadan daha üstündü.

Njde "Tseqarakon"u iki əsas prinsip üzərinə qurmuşdu: 1. Bütün başımıza gələn bəlaların səbəbi biz özümüzük. 2. Bizə lazım olan gücü özümüzdə axtarmalıyıq.

"Tseqakron" təlimi aşağıdakı kimi inşa edilir: "Mən öz Soyumu (tsex) bilirəm, mən öz nəslimə güvənirəm, mənim soyum Tanrıya daha yaxındır, ali irqdir, mən cismimdə "Tseqarakon"u daşıyıram".

Eyni illərdə İtaliyada faşizm, Almaniyada isə milli sosializm düşüncələri ictimai kütlələrə sirayət edilməkdəydi. Başqa bir deyişlə, Ermənistan o dövrdə müstəqil bir dövlət olsaydı, mütləq erməni faşist quruluşundan bəhs edəcəkdik. Fikrimizcə, Anadoluda və Azərbaycanda erməni dirənişinin əsasında sözügedən düşüncə yer alır.

Njdəyə görə, erməni xalqı aşağıdakı kultlarla həyatına davam etməlidir: Vətən kultu, Qan kultu, Dil kultu, Vətən uğrunda öz həyatını qurban etmə kultu, Ulular kultu, Güc kultu, Öndər kultu. Göründüyü kimi, dəyişməyən prinsiplər burada da vacibliyi ilə diqqətdədir.

Vətən kultu: erməni soyunun doğum yerinə hörmətidir. Erməni gənci bütün səyini və quvvəsini Ermənistan ərazisini genişləndirməyə sərf etməli və onun bundan böyük xoşbəxtliyi olmamalıdır.

Dil kultu: "Tseqakron" hər bir erməninin bir-biriylə danışarkən yalnız erməni dilinin istifadəsini tövsiyə edir. Erməni dilini bilməyən soyun nümayəndəsi olaraq qəbul edilə bilməz. Yəni erməni düşüncəsi böyük ölçüdə dilə bağlıdır, əgər dil olmasa, xaricə dağılmış erməni birliyini təmin etmək mümkün olmaz. (Nidje bolşevik zülmü altında yaşayan erməniləri özündən saymır, onları qəbul etmir və bütün ümidlərini diasporaya bağlayırdı).

Öz həyatını qurban etmə kultu: Soyunu qorumaq üçün bu yolda ölmək bir şərəfdir və "...Aslan kimi mübarizə etməliyik".

Ulular kultu: "Tseqakron" nəsillər arasında əlaqələrin davam etməməsini ən böyük çatışmazlıq olaraq qəbul edir. Xüsusilə Ana Vətən torpaqları üzərində fəaliyyətin davamı yeni nəsil üçün qida qaynağı olmalıdır.

Güc kultu: "Tseqakron" gücə xüsusi yer verir. Njdeye görə, güclü qazanan olar, haqlı olmaz; dünya güclü olanın qarşısında boyun əyər.

Öndər kultu: Hər soyun başında xalqın taleyini müəyyən edən bir lider olmalıdır. "Tseqakron" soy üzvlərinin öndərinin iradəsinə tabe olmasını tələb edir. Ermənilik, Njdeyə görə, hər şeydən üstündür. "Sən əvvəl ermənisən, sonra insansan! Ermənilik hər şeydən üstündür". Buna görə də "Tseqakron" ermənilərin maraqlarını hər hansı xalqın mənfəətlərindən daha üstün tutar. Məsələn, "Tseqakron" nizamnaməsinin ana səhifəsi bu şüarla başlayır: "Lozanna? Xeyr, Xeyr, Xeyr, heç bir zaman qəbul edilə bilməz". Və fikir belə davam edir: "Bir xalqın ana torpağı digər xalqın daimi vətəni ola bilməz".

"Tseqakron" ermənilərin yalnız torpaq üçün vuruşmağa hazır olmasını tələb etmir, bu təlim daha irəli gedərək, ermənilərdən türklərə qarşı mərhəmətsiz intiqam tələb edir. Njde belə yazır: "Bizim aramızdakı düşmənlik tarixi deyil, daha çox biolojidir və biz bu xalqı hansı üsulla olursa-olsun yox etməliyik".

"Tseqakron" ilə digər qeyri-insani təlimlər (nəzəriyyələr) arasında elə də böyük fərg yoxdur. Qaregin Njde təlimi şərh edərkən deyir: "İtalyanların faşizmi var, almanların nasizmi, yəhudilərin isə sionizmi...Ermənilərinsə "Tseqakron"u var... Biz 1919-cu ildə bu fikirləri meydana gətirərkən Mussolini öz düşüncələrini daha yeni-yeni kəşf edirdi. Hitler ərazilərin genişlənməsini hələ təsəvvür etmirdi. Nasistlərin fəlsəfəsində vətən sərhədi heç bir məna daşımamaqdadır. Biz isə xalqımıza onun Ana torpağı olan Erməni Dağlıq yeri vermək istəyirik. Hitler yəhudiləri insanlıq üçün bir bəla olaraq görməkdə idi və bundan dolayı onları yox etməyi hədəfləyirdi. Bizim soyumuzun düşmənləri isə Türklərdir, onlar erməniləri yer üzündən silirdilər və məmləkətimizin torpaqların böyük hissəsini ələ geçirmişdilər" və s. Göründüyü kimi, "Tseqakron" bir nasist təlimidir və dünya ermənilərinin də türklərə, o cümlədən bizə - azərbaycanlılara qarşı davranışlarının əsasını Njdenin düşüncələri təşkil edir.

Əfsuslar olsun ki, sözügedən bu barbar düşüncə sadəcə cəmiyyət daxilində təsirli deyil, dövlət idarəçiliyini də təsiri altına alıb. Nə yazıqlar ki, Ermənistanın Respublikaçılar Partiyasının nizamnaməsində deyilir: "Partiyamızın əsas ideologiyası Qaregin Njdenin təlimi üzərində qurulmuşdur". Bu bir partiyanın düşüncəsidir, burada nə var ki, deyə bilərsiniz. Lakin bu partiya uzun illər Ermənistanda iqtidarda idi və Njdenin düşüncələrini Qarabağda uygulamada göstərmişdilər. İndi isə məqaləmizin adını yenidən oxuyun.

Tseqakron - ermənicə iki sözün - irq və din kəlmələrinin birləşməsidir. Digər bir mənası isə "irqin saflığı, tanrıdan xüsusi tapşırıq və s". Başqa bir ifadə ilə, bir növ erməni nasizmi. İndi Nikol Paşinyandan soruşmaq lazım, sən kimin abidəsini qorumaq istəyirsən?!

***Aydın İBRAHİMOV***
***Egey Universiteti Beynəlxalq Əlaqələr kafedrasının professoru***
***Türkiyə, İzmir.***

# Azərbaycan - Ukrayna hökumətlərarası komissiya bir neçə illik fəaliyyətsizlikdən sonra hərəkətə gətirildi

## SOCAR-ın fəaliyyətinin gücləndirilməsi barədə razılıq əldə olundu

**Dekabrın 17-də Prezident İlham Əliyevin və Ukraynanın Prezidenti Vladimir Zelenskinin təkbətək görüşü olub.**

Vladimir Zelenskini salamlayan Prezident İlham Əliyev deyib:

-...Şadam ki, qələbədən bir neçə ay sonra Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz. Bu onu göstərir ki, Siz Ukrayna-Azərbaycan əlaqələrinin inkişafına böyük diqqət göstərirsiniz. Biz də bu münasibətlərə böyük diqqət göstəririk.

Ukrayna Prezidenti Vladimir Zelenski deyib:

- ...Səmimi demək istəyirəm ki, mən bundan əvvəl də Azərbaycanda səfərdə olmuşam. Azərbaycana hər səfərimdən sonra mən Ukraynaya yeni hisslərlə, yeni emosiyalarla və yeni dostlarla qayıdıram. Azərbaycan çox qonaqpərvər torpaqdır. Fürsətdən istifadə edərək, Sizi də Ukraynaya rəsmi səfərə dəvət edirəm. Əmin edirəm ki, biz də olduqca qonaqpərvər bir ölkəyik.

Ölkələrimiz arasında hazırda da olduqca möhkəm münasibətlər var. Əminəm ki, bu səfərin nəticəsi olaraq biz onu yeni mərhələyə qaldıra biləcəyik. Azərbaycana minnətdarlığımızı bildirmək istəyirik ki, Azərbaycan Ukraynanın suverenliyini və ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Xahiş edirəm biləsiniz ki, biz də, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik.

Dekabrın 17-də Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Vladimir Zelenskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib:

- ...Biz artıq təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik və bir daha gördük ki, ikitərəfli gündəlik kifayət qədər genişdir. İndi geniş tərkibdə danışıqlarda biz məsələləri ətraflı müzakirə edəcəyik. Əminəm ki, səfərin çox gözəl nəticələri olacaqdır. Bir çox önəmli məsələlər müzakirə olundu, o cümlədən ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlər. Ənənəvi olaraq energetika, nəqliyyat sahələrində əməkdaşlıq uğurla davam etdirilir. Təkbətək görüşdə biz bu əlaqələrin gələcək inkişafı ilə bağlı geniş fikir mübadiləsi apardıq. Bir önəmli sahə də kənd təsərrüfatıdır. Biz əvvəlki illərdə Ukraynadan bir çox kənd təsərrüfatı texnikası almışıq. Əlbəttə ki, qarşılıqlı sərmayə qoyuluşu ilə bağlı məsələlər böyük maraq doğurur. Əminəm ki, bu gün keçiriləcək Ukrayna-Azərbaycan biznes forumu biznes dairələri arasındakı əlaqələrə də müsbət təsir göstərəcəkdir.

Ukrayna Prezidenti Vladimir Zelenski deyib ki, biz müzakirələrdə münasibətlərimizin yaxşı səviyyədə olduğunu qeyd etdik. Ancaq düşünürəm ki, Azərbaycan-Ukrayna münasibətlərini növbəti daha yüksək mərhələyə qaldırmağa böyük imkanlar var. Cənab Prezidentlə razılığa gəldik ki, yaxın zamanda Azərbaycandan bir işçi heyət Ukraynaya səfər edəcək və orada bizim bütün şirkət və müəssisələrdə olub imkanları yerində araşdıracaq. Energetika, kənd təsərrüfatı, turizm, infrastrukturun inkişafı sahələri bizim üçün böyük maraq kəsb edir.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Vladimir Zelenskinin iştirakı ilə Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimi olub.

Gəncə şəhəri və Niyyət Protokolunu, Quba şəhəri ilə Truskavets şəhəri arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Müqaviləni Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev və Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski imzalayıb.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Ukraynanın Dövlət Tənzimləmə Xidməti arasında biznesin aparılması şəraitinin tənzimlənməsi sahəsində əməkdaşlıq haqqında Sazişi, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə Ukraynanın Dövlət Xüsusi Rabitə və Məlumatın Mühafizəsi Xidməti Administrasiyası arasında Bakı-Kiyev dövlətlərarası hökumət rabitə xəttinin təşkil edilməsi haqqında Sazişi Azərbaycanın Xarici işlər naziri Elmar Məmmədyarov və Ukraynanın Xarici işlər naziri Vadim Pristayko imzalayıb.

Sonra prezidentlər İlham Əliyev və Vladimir Zelenski mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Prezident İlham Əliyev bəyanatla çıxış edib:

- Mən çox şadam ki, Prezident vəzifəsinə seçilməyinizdən bir neçə ay sonra Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz. Bu, Sizin bizim ölkəmizə olan diqqətinizin təzahürüdür. Biz də Ukrayna-Azərbaycan əlaqələrinin inkişafına çox böyük diqqət veririk. Bu gün həm təkbətək formatda, eyni zamanda, nümayəndə heyətlərinin iştirakı ilə danışıqlarda Ukrayna-Azərbaycan ikitərəfli əlaqələrinin müxtəlif aspektləri geniş müzakirə olundu və çox səmərəli fikir mübadiləsi aparıldı.

Bizim siyasi əlaqələrimiz yüksək səviyyədədir. Prezidentin Azərbaycana rəsmi səfəri bunu təsdiqləyir. Bu gün biz ticarət dövriyyəsinin artırılması istiqamətində atılacaq addımlar haqqında danışdıq. Düzdür, bu il ticarət dövriyyəmiz təqribən 20 faiz artmışdır. Ancaq mütləq rəqəmlər bizi qane edə bilməz və bu gün gələcək əməkdaşlıqla bağlı konkret məsələlər müzakirə olundu.



İki ölkə bir-birinin ərazi bütövlüyünü dəstəklədi

...Təbii ki, Ukrayna-Azərbaycan ikitərəfli Hökumətlərarası Komissiyasının fəaliyyətindən çox şey asılıdır. Əfsuslar ki, son bir neçə il ərzində komissiya demək olar fəaliyyət göstərmirdi. Ancaq biz indi birgə qərarla komissiyanın fəaliyyətinə yeni təkan veririk. Razılaşdırdıq ki, gələn ay artıq komissiya yığışacaq və prezidentlər tərəfindən verilən tapşırıqlar geniş müzakirə ediləcəkdir.

Ticarət dövriyyəsinin artırılması ilə yanaşı, birgə sərmayə qoyuluşu layihələri böyük maraq doğurur. Biz bu barədə də geniş fikir mübadiləsi apardıq. Həm Ukraynanın Azərbaycana, həm də Azərbaycanın Ukraynaya sərmayə qoyuluşu ilə bağlı konkret təkliflər vardır. Hesab edirəm ki, bu təkliflər həyatda öz əksini tapa bilər. Bir çox sahələrdə birgə sərmayə layihələri bizim əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir.

Energetika sahəsində əməkdaşlıq müzakirə edildi. SOCAR artıq uzun illərdir ki, Ukraynada fəaliyyət göstərir, altmışdan çox yanacaqdoldurma məntəqəsi, dörd neft bazası vardır.

*(Ardı 9-cu səh.)*

(Əvvəli 8-ci səh.)

Bu gün biz bir daha bu məsələni müzakirə edərkən razılığa gəldik ki, SOCAR Ukraynadakı fəaliyyətini genişləndirəcək və konkret addımlar atılacaqdır.

Əvvəlki illərdə kənd təsərrüfatı sahəsində əməkdaşlıq aparılırdı. Biz Ukraynadan 400-dən çox kənd təsərrüfatı texnikasını almışıq və bu əməkdaşlığı davam etdirmək istəyirik.

Digər önəmli məsələ, - bu gün bu məsələyə kifayət qədər böyük vaxt ayrıldı, - turizmin inkişafıdır. Həm Azərbaycanın, həm Ukraynanın çox böyük və zəngin turizm imkanları vardır. Bu sahədə də birgə əməkdaşlıq, təcrübə mübadiləsi, birgə layihələr müzakirə edildi, geniş fikir mübadiləsi aparıldı və konkret tapşırıqlar verildi.

Həm Ukraynada, həm Azərbaycanda nəqliyyat sahəsində müasir logistika və infrastruktur mövcuddur. Xəzər dənizi, Qara dəniz nəqliyyat dəhlizləri bizim ölkəmizin iştirakı ilə fəaliyyət göstərir.

Təbii ki, humanitar sahədə əməkdaşlığa da yer ayrıldı. Azərbaycanda Ukrayna mədəniyyətinə çox böyük hörmət var, Ukrayna dili tədris edilir. Bakı Slavyan Universitetində Ukrayna Mərkəzi vardır. Eyni zamanda, Ukraynanın ali məktəblərində Azərbaycan tarixinə, ədəbiyyatına kifayət qədər böyük yer ayrılır. Təbii ki, humanitar sahədə əməkdaşlıq ümumi əməkdaşlığa da müsbət təsir göstərir.

Əlbəttə ki, biz mətbuata verilən bu açıqlamada müzakirə edilmiş bütün məsələləri sadalaya bilmərik. Çünki çox vaxt aparacaq. Ancaq deyə bilərəm ki, davam etməsinə baxmayaraq, bu səfər bütövlükdə çox uğurlu səfər kimi qiymətləndirilə bilər. Əminəm ki, bu səfər Ukrayna-Azərbaycan əlaqələrinin inkişafında yeni səhifənin açılmasına gətirib çıxaracaq. Biz konkret məsələləri müzakirə edib konkret tapşırıqlar verdik. Ümid edirəm ki, bu tapşırıqlar aidiyyəti qurumlar tərəfindən uğurla icra ediləcəkdir.

Sonra Prezident Vladimir Zelenski bəyanatla çıxış edib:

-Bizim münasibətlərimiz zamanın sınağından keçib. Biz çətin vaxtlarda bir-birimizə hər zaman dayaq olmuşuq. Azərbaycan Ukrayna üçün həmişə etibarlı dost və mühüm strateji tərəfdaş olmuşdur və bu gün də bu belədir.

Biz cənab Prezidentlə tərəfdaşlığımızın sözdə deyil, əməldə gücləndirilməsini müzakirə etdik. Xüsusilə də burada iqtisadi sahəyə diqqət yetirilmişdir. Əminəm ki, hər iki ölkədə Ticarət evlərinin açılması da buna təkan verəcəkdir. Məlumdur ki, 2018-ci ildən Ukraynada Azərbaycan Ticarət Evi fəaliyyət göstərir, bu gün isə mən Azərbaycanda Ukrayna Ticarət Evinin açılışında iştirak edəcəyəm. Bu münasibətlə hər birimizi təbrik edirəm.

Əminəm ki, qarşılıqlı sərmayə qoyuluşu hər iki ölkənin mənafelərinə xidmət edir, burada müxtəlif birgə layihələrdən söhbət gedə bilər. Məsələn, Azərbaycanın mobil operatoru olan "Bakcell" tərəfindən "Vodafone Ukrayna"nın səhmlərinin alınması yaxşı bir nümunədir. Bu bizim bu sahədə olan xidmətlərin yüksəldilməsinə kömək edəcəkdir. Bununla yanaşı, mən Azərbaycan şirkətlərini də Ukraynada özəlləşdirmədə fəal iştiraka dəvət edirəm. Artıq 10 ildir ki, SOCAR Ukraynada uğurla fəaliyyət göstərir. Biz də əlimizdən gələni edəcəyik ki, neft-qaz məhsullarının hasilatı və daşınmasına da hər cür dəstək göstərək.

"Cənub Qaz Dəhlizi" layihəsi də bizim ölkəmiz tərəfindən xüsusi izlənilir. Bu layihənin genişləndirilərək Avropa istehlakçılarına çatdırılmasına öz töhfəmizi müzakirə etdik. Xüsusilə də hesab edirəm ki, bizim - həm Ukraynanın, həm Azərbaycanın misilsiz nəqliyyat potensialı var. Biz belə qərara gəldik ki, nəqliyyat və aviasiya daşımaları sahələrində də təmaslarımızı, əməkdaşlığımızı gücləndirək. Növbəti il yanvarın sonunadək biz Kiyev şəhərində ikitərəfli Hökumətlərarası Komissiyanın iclasını təşkil edəcəyik.

Aerokosmik sahədə əməkdaşlığa xüsusi diqqət yetirilmişdir. Müxtəlif sahələrdə, təyyarə istehsalı sahəsində, o cümlədən humanitar sahədə də məsələləri müzakirə etdik. Azərbaycanda Ukrayna kinosu günləri təşkil ediləcəkdir. Sizin də şahidi olduğunuz kimi, burada bir neçə sənəd - həm biznesin inkişafı, həm məxfi məlumatların qorunması və Ukraynanın müxtəlif bölgələrinin Azərbaycanın bölgələri ilə əməkdaşlığının təşviqi ilə bağlı sənədlər imzalandı.

Təbii ki, bizim bugünkü söhbətimizin əsas hissəsini milli və regional təhlükəsizlik məsələləri təşkil edirdi. Biz burada Dağlıq Qarabağ münaqişəsi və Ukraynanın şərqində baş verən münaqişəni müzakirə etdik. Biz bir-birimizi ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi məsələsində də dəstəkləyirik. Burada söhbət beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində bərpadan gedir. Bu baxımdan bu prinsip həm ikitərəfli təmaslarda, həm də beynəlxalq təşkilatlar çərçivəsində də bizim əməkdaşlığı özündə ehtiva edir. Bu, bizim ölkələrimizin arasında olan münasibətlərin səviyyəsinin göstəricisidir. Biz həm regional, həm də qlobal səviyyədə birgə mövqedən çıxış edirik. Azərbaycana 2020-ci ildə GUAM-a uğurlu sədrlik arzu edirəm.

Cənab Prezident, Siz qeyd etdiyiniz kimi, bu mənim ölkənizə ilk rəsmi səfərimdir. Bu səfər yeni başlayıb, amma artıq məndə belə bir əminlik var ki, bu bizim əməkdaşlığımızın yeni səviyyəsinin göstəricisi olacaqdır. Əminəm ki, bu bizim gələcək potensialımızın inkişafına xidmət edəcəkdir. Təşəkkür edirəm.

# Deputatların həm də dövlətdə, media, QHT sektorunda və s. vəzifə tutması - yeni parlament bu praktikaya son qoyacaqmı...

**Azərbaycan Konstitusiyasının 89-cu maddəsinə görə, Milli Məclisin deputatı dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olduqda (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla) mandatdan məhrum edilir.**



## *İlqar Hüseynli: "Deputatın eyni vaxtda hansısa icraedici işdə işləməsi, QHT və media qurumuna rəhbərlik etməsi doğru deyil"*

Ancaq beşinci çağırış Milli Məclisin üzvləri arasında həm deputat statusuna, həm də ödənişli vəzifəyə sahib olan şəxslər olub, baxmayaraq ki, qanun deputatlara bəzi vəzifələri tutmağı qadağan edir. Deputatlar sahibkarlıq fəaliyyətilə məşğul ola bilməzlər. Həmçinin, deputatın icra qurumlarında, məhkəmə orqanlarında çalışması da qanunla qadağandır. Milli Məclis qanunverici hakimiyyətin bir qoludur. Ona görə də Milli Məclis deputatının fəaliyyəti qanunvericiliklə əhatə olunmalıdır. Bu və ya digər komissiyaların üzvü ola bilər. Sadəcə, bu, ödənişli vəzifə olmamalıdır. Milli Məclisin deputatı hər hansı ödənişli vəzifə tuta bilməz. Deputatın əməkhaqqı parlamentdə aldığı məvaciblə məhdudlaşmalıdır. Ancaq buraxılan parlamentdə bəzi deputatlar nəinki dövlət vəzifələrində, QHT, media rəhbəri kimi də fəaliyyət göstəriblər. Görürsən həm deputatdır, həm də hansısa səhiyyə, təhsil sahəsinə rəhbərlik edir. Bu işlərin öhdəsindən deputatın necə gəldiyinin özü sual doğurur. Bunun qanuni əsası olmadığı kimi, həm də bir mənəvi əsası da yoxdur. O baxımdan belə hallar nə dərəcədə doğrudur? Yeni parlament bu praktikaya son qoyacaqmı?

Məsələyə münasibət bildirən ekspert İlqar Hüseynlinin sözlərinə görə, parlament üzvlərinin əsas funksiyası, birinci növbədə, qanunvericilik təşəbbüsü ilə çıxış etmək olmalıdır: "Eyni zamanda, qanunların qəbul olunmasında iştirak etmək olmalıdır. Hər bir deputatın bir nömrəli işi ondan ibarət olmalıdır ki, seçicilərin sosial qayğılarını araşdırıb analiz etsin. Ölkədəki sosial islahatlarla bağlı öz təklif və tövsiyələrini parlamentdə verməlidir. Yoxsa, deputatın həm də eyni vaxtda hansısa icraedici işdə işləməsi, QHT və media qurumuna rəhbərlik etməsi doğru deyil. Düzdür, qanun mətbuat rəhbərlərinə bunu qadağan etmir, amma burada bir mənəvi məsuliyyət məsələsi olmalıdır. Yəni həm deputat olum, həm də digər maliyyə qaynaqları yaradan hər hansı böyük işlərlə məşğul olum, bunların bir araya sığmadığı həlledici bir məsələ kimi əsas götürülməlidir. Əsasən öz seçicisinə və ictimai rəyə hörmət edən nüfuzlu şəxslər deputat seçkilərində qələbə çaldıqda digər fəaliyyətlərini dayandırmalıdırlar. Daha çox qanunvericilik orqanında öz imkanlarını səfərbər edib xalqına xidmət etməlidirlər. Yeni parlamentdə bunun nəzərə alınıb-alınmayacağını konkret proqnozlaşdırmaq çətindir. Ancaq, əslində, nəzərə alınmalıdır".

> *"Düzdür, qanun mətbuat rəhbərlərinə bunu qadağan etmir, amma burada bir mənəvi məsuliyyət məsələsi olmalıdır"*

**Vidadi ORDAHALLI**

# Prezident təsdiqlədi - büdcəmizdə nələr var...

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev "2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiq edib. Belə ki, gələn il dövlət büdcəsinin gəlirləri 24 milyard 134,5 milyon manat, xərcləri 26 milyard 894,7 milyon manat məbləğində təsdiq edilib.**

Görünən odur ki, son 3 ildə büdcənin xərclərini xeyli artırmaq mümkün olub. Söhbət xərclərin 27 milyard manata yaxın olmasından gedir. Gələnilki büdcədə ənənəvi olaraq sosialyönümlülük təmin ediləcək. Bu əsasda əməyin ödənişi, təqaüdlər və sosial müavinətlər, o cümlədən, əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin möhkəmləndirilməsi üzrə maliyyə təminatının yaradılması prioritet xərc istiqamətlərindən olacaq. Bununla yanaşı, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi, xüsusi müdafiə xarakterli layihələr və tədbirlər üçün maliyyə təminatının yaradılması 2020-ci il və ortamüddətli dövrdə də davam etdiriləcək.

Xərc siyasətinin digər mühüm istiqaməti ərzaq təhlükəsizliyinin təmin edilməsi olacaq. Bununla əlaqədar aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi üçün müvafiq təşviq mexanizmləri formalaşdırılacaq, maliyyə dəstəyi və subsidiyalar ayrılacaq. 2020-ci ilin büdcəsi cari ilin büdcəsindən təkcə gəlir və xərclərinin daha böyük olması ilə fərqlənmir, həm də növbəti ilin büdcəsində keyfiyyət dəyişikliklərini ehtiva edən mühüm məqamları görmək olar. İlk növbədə, gələn ilin dövlət büdcəsi yeni yanaşmalara və yeni büdcə qaydasına uyğun olaraq tərtib edilib. Bu qaydalar, ilk növbədə, neft qiymətlərindəki dəyişkənliyin büdcə gəlirlərinə təsirini minimuma endirməyi hədəfləyir. Xüsusilə də gələn ilin büdcəsində neftin baza qiymətinin 55 dollardan götürülməsi və qeyri-neft gəlirlərinin neft transferlərini üstələməsi çox müsbət amildir. Məsələ ondadır ki, büdcədə qeyri-neft gəlirlərinin payındakı artım Dövlət Neft Fondundan artan transferlərdən 2,5 dəfə çoxdur. Neft Fondundan transfer təxminən 400 milyon manat artır (3 faiz artım), halbuki, qeyri-neft gəlirlərinin artım tempi 11,3 faizdir. Bu o deməkdir ki, 2019 ilə nisbətən gələn il 1 milyard 68 milyon manat çox vəsait daxil olacaq. Ümumilikdə, gələn ilin büdcə gəlirlərinin tərkibində qeyri-



neft gəlirləri 10 milyard 536,5 milyon manat olmaqla payını 43 faizə çatdırmış olacaq.

Müqayisə üçün qeyd edək ki, 2017, 2018 və 2019-cu ilin dövlət büdcələrində Neft Fondunun büdcəyə transferləri orta templə 7-8 faizdən çox idi. 2020-ci ilin büdcəsində isə bu temp 2 dəfə azalıb. Bu o deməkdir ki, gələn il büdcəyə transferin həcmi 3,5 faiz olacaq. Digər tərəfdən, 2017-ci ildə cəmi xarici borca xidmət dövlət büdcəsinin xərclərinin 11 faizini təşkil etdiyi halda, gələn il də bu hədd azalacaq. 2025-ci ildə bu hədd 6,2 faizə endiriləcək. Növbəti illərdə mövcud xarici dövlət borcunun azalması cəlb olunan yeni borclardan çox olacaq. Nəticədə tədricən xarici dövlət borcunun ÜDM-ə nisbəti daha da aşağı düşəcək. Ümumən, Azərbaycan xarici borcun ÜDM-ə nisbətinə görə dünyada ən yaxşı vəziyyətdə olan ölkələrin sırasındadır. Ancaq görünən odur ki, bu istiqamətdə işlər davam etdiriləcək.

Bir sözlə, 2020-ci ilin büdcə parametrlərinə diqqətlə yanaşdıqda məlum olur ki, maliyyə idarəçiliyi sahəsində aparılan islahatların iqtisadiyyatın neft amilindən asılılığının azaldılmasına mühüm təsir göstərdiyini görmək mümkündür. Bu da çox müsbət göstəricidir.

***Vidadi ORDAHALLI***

# Azərbaycanda tenderlər zamanı hansı qeyri-şəffaf neqativliklər özünü göstərir - Prezident ideyanı təsadüfən qaldırmadı...

***Rəsul Cahangirli:** "Tenderlərin keçirilməsi zamanı rəqəmlər şişirdilir"*

**"Biz tenderin qalibini açıq və şəffaf tender şərtlərinə uyğun müəyyən etməliyik". Bunu Prezident İlham Əliyev "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) prezidenti Baba Rzayevi qəbul edərkən deyib.**



Ölkə başçısının sözlərinə görə, sevindirici haldır ki, Azərbaycana investisiya qoymaq istəyən şirkətlər öz aralarında rəqabət aparırlar: "Bir məsələ də daim diqqət mərkəzində olmalıdır. Bu da bərpaolunan enerji növlərinin yaradılmasıdır. Şadam ki, bu sahəyə xarici investorlar da böyük maraq göstərirlər. Hazırda Azərbaycan Energetika Nazirliyi bu işlərlə məşğul olur, tender elan olunub və bu sahədə böyük təcrübəsi olan şirkətlər tenderdə iştirak edirlər. Yeni sevindirici hal ondan ibarətdir ki, Azərbaycana investisiya qoymaq istəyən şirkətlər öz aralarında rəqabət aparırlar. Vaxtilə biz investorları inandırmağa çalışırdıq ki, gəlib vəsait qoysunlar. Ancaq indi investorlar özləri maraq göstərirlər. Biz tenderin qalibini açıq və şəffaf tender şərtlərinə uyğun müəyyən etməliyik. Çünki söhbət təqribən 400-500 meqavat gücündə bərpaolunan elektrik stansiyalarının inşasından gedir".

O da məlumdur ki, tenderlərin şəffaflığı ilə bağlı məsələ zaman-zaman müzakirə mövzusu olub. Məsələ ondadır ki, tenderlər heç də hər zaman şəffaf keçirilmir. Nəticədə işin smeta dəyəri bir sıra hallarda şişirdilir. Hansısa məmurlara bu və digər dərəcədə yaxın olan şirkətlər qalib elan olunur. Bütövlükdə, keçirilən tenderlərlə bağlı hansı neqativliklər baş verir?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, keçirilən tenderlərdə neqativ hallar müxtəlif formada özünü göstərir: "Əvvələ Prezident İlham

*"Daha bacarıqlı şirkətlər kənarda qalır, hansısa dairələrə yaxın olan şirkətlər tenderin qalibi elan olunur"*

Əliyev oktyabrın 15-də keçirilən iqtisadi müşavirədə də bu məsələyə toxundu. Müşavirədə ölkədə aparılan islahatlardan, nailiyyətlərdən danışan dövlət başçısı daha sonra iqtisadi sahədə olan neqativ məqamlara da toxunaraq dövlət maliyyəli qurumların gördükləri işləri şişirtdiklərini bildirib. Bu onu göstərir ki, bu sahədə bir sıra hallarda şişirtmələrə yol verilir. Digər tərəfdən, ölkədə keçirilən tenderlərə nəzər saldıqda burada göstərilən rəqəmlərin reallığa uyğun olmadığı bir sıra hallarda açıq şəkildə özünü göstərir. Məsələn, qaydaya görə, dövlət satınalmalarında ehtimal olunan qiymət hesablanan zaman əvvəlki dövrdə bağlanmış müqavilə qiymətindən, qara bazarda olan real qiymətlərdən, müxtəlif mənbələrdən və internet resurslarından öyrənilməlidir. Bu zaman vergi, nəqliyyat, gömrük xərcləri və digər vacib faktorlar nəzərə alınmalıdır.

**Ancaq çox vaxt deyilən tərzdə işlər qurulmur. Bu da özlüyündə təklif olunan qiymətlərə təsir edən amillərdən biridir. Tenderlərin keçirilməsi zamanı rəqəmlər şişirdilir. Daha bacarıqlı şirkətlər kənarda qalır, hansısa dairələrə yaxın olan şirkətlər tenderin qalibi elan olunur. Bu da son nəticədə görülən işin keyfiyyətinə mənfi təsir edir".**

***Vidadi ORDAHALLI***

**Azərbaycanın yaratdığı nəqliyyat infrastrukturu getdikcə daha çox ölkənin diqqətini özünə cəlb etməkdədir. Elə bu səbəbdəndir ki, qarşılıqlı ticarət əlaqələrini Azərbaycan üzərindən həyata keçirmək istəyən ölkələrin sayı da durmadan artır.**

# Azərbaycan Avrasiyanın ən əlverişli logistik mərkəzinə çevrildi - Hindistan və Çindən Finlandiyayadək...




Məsələn, elə bu günlərdə İranın Mazandaran vilayətinin Ticarət və Sənaye Palatası ilə Rusiyanın Samara vilayətinin administrasiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Burada bildirilir ki, İranla Rusiya vilayətləri ticarət, kənd təsərrüfatı və sənaye məhsullarının istehsalı sahəsində əməkdaşlıq edəcək. Onlar arasında yükdaşımalar isə məhz Azərbaycan üzərindən həyata keçiriləcək.

Qeyd edək ki, Astara (Azərbaycan)-Astara (İran) dəmir yolu xətti istismara verildikdən sonra İranla Rusiya arasında ticarət əlaqələri daha da intensiv xarakter alıb. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın dəmir yolu sistemi hələ sovetlər dönəmindən Rusiya ilə birləşmişdi. Astara-Astara dəmir yolu isə Azərbaycan vasitəsilə İranın dəmir yolları sistemini Rusiya ilə birləşdirib. İmzalanmış müqaviləyə əsasən, İranın Mazandaran vilayətindən Samaraya kənd təsərrüfatı məhsulları, o cümlədən tropik meyvələr, tikinti materialları ixrac ediləcək. Samaradan İrana isə ağac, kənd təsərrüfatı texnikası və başqa mallar ixrac olunacaq. Bütün idxal-ixrac əməliyyatları Azərbaycan üzərindən həyata keçiriləcək ki, bu da ölkəmizin tranzit gəlirlərinin artmasına səbəb olacaq. Xatırladaq ki, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinin Qəzvin-Rəşt hissəsi artıq istifadəyə verilib. Yolun Rəşt-Astara hissəsində isə inşaat işləri davam edir. Bu layihə başa çatdıqdan sonra İrandan Rusiyaya və əks istiqamətə yükdaşımanın həcmi də artacaq.

Daha bir maraqlı məqam Avropa ilə bağlıdır. Belə ki, Litva Azərbaycan və ölkəmiz üzərindən yüklərin Avropaya ucuz daşınması üçün şərtlər təklif edir. Litvanın Nəqliyyat və Kommunikasiya Nazirliyi bildirir ki, Litva Bakı-Tiflis-Qars dəmir yolunu digər tədarük marşrutlarına alternativ olaraq nəzərdən keçirir: "Bizə bu marşrut üzrə Azərbaycanın daşıma planları maraqlıdır. Litva yaxşı işləyən multimodal nəqliyyat-logsitika sistemini yaradıb və tranzit ölkə qismində "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin tərkibində vacib rol oynayır. Ona görə də ölkəmiz Azərbaycana yüklərin Avropa və Skandaniva ölkələrinə təhlükəsiz, sürətli və ucuz daşınmasını təklif edir". Rus ekspert Aleksandr Karavayev bildirir ki, ümumiyyətlə, Azərbaycanın nəqliyyat imkanlarından istifadə etmək istəyənlərin sayının daha da artacağını gözləmək olar. O, buna əyani misal kimi Hindistanı göstərir və qeyd edir ki, Azərbaycan Hindistanı Orta Şərq, Qafqaz, Mərkəzi Asiya, Rusiya və Avropa ölkələri ilə birləşdirən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsinin iştirakçılarından biridir. Bu layihənin reallaşdırılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır: "Azərbaycan ərazisindən dəhlizin bir hissəsinin keçməsinə baxmayaraq, ölkə "Şimal-Cənub" layihəsinin reallaşmasında həlledici rol oynayır. Çünki müxtəlif istiqamətləri birləşdirən nəqliyyat qovşağı kimi aparıcı rol məhz Azərbaycana aiddir. Azərbaycan dəhlizin keyfiyyətini Hindistanı Rusiya ilə birləşdirən ayrıca layihə şəklində deyil, "Şimal-Cənub"un meridianını "Bir kəmər - bir yol" layihəsinin seqmentləri ilə birləşdirən multimodal kommunikasiya qovşağı şəklində gücləndirir. Bunun məhz Azərbaycanda baş verməsi ölkəni yüklərin transnövlü ötürülməsində nəqliyyat habına çevirir. Eyni zamanda onu da vurğulamaq lazımdır ki, Azərbaycan sadəcə tranzit tariflərindən gəlir götürən tərəf deyil, həm də "Azərbaycan Dəmir Yolları" və "ASCO" nun timsalında dəhlizin vacib daşıyıcısıdır. Başa düşmək lazımdır ki, iştirakçılara yalnız müəyyən zaman keçdikdən sonra real mənfəət gətirən istənilən qəliz nəqliyyat layihəsi kimi, "Şimal-Cənub"da uzunmüddətli siyasi və iqtisadi diqqət tələb edir. Bu layihədə Azərbaycanın siyasi müstəvidə əldə edəcəyi dividendlərə gəlincə, onu demək istərdim ki, dəhliz ətrafında uzunmüddətli perspektivdə Hindistan iqtisadiyyatının inkişaf potensialından istifadə edəcək qəliz geosiyasi mövqe, fərqli iqtisadi dinamikalı ölkələr qrupunun formalaşması mühüm yer tutur. Qeyd etmək lazımdır ki, 2020-ci ilin sonu, 2030-cu illərin əvvəlinə Hindistan iqtisadiyyatı liderliyə yüksələ, ən azından ABŞ və Çinlə yanaşı, 3 ən böyük iqtisadiyyatdan biri ola bilər. Əsas dividend məhz bundan ibarətdir". Ekspert yükdaşımalar sahəsində artıq Çinin də Azərbaycanla əməkdaşlığı əhəmiyyətli dərəcədə genişləndirdiyini bildirir. O deyib ki, Azərbaycanın çoxvektorlu siyasəti son illərdə fəal xarakterli siyasətə çevrilib. Yəni Azərbaycan müxtəlif geosiyasi qüvvələrə Cənubi Qafqazda öz layihələrini təklif edir. Karavayev bu kontekstdə "Yeni İpək Yolu" layihəsinin rolunu xatırladaraq bildirir: "Azərbaycan yol xəritələri mövzusunu fəal inkişaf etdirərək, bu xəritələri öz layihələri ilə zənginləşdirir ki, bu da bilavasitə çox əhəmiyyətli "Şimal-Cənub" dəhlizində əks olunur. Burada o da mühümdür ki, Moskva ilə Bakı arasında müzakirə edilən layihələr iki ölkənin bu beynəlxalq dəhlizlərə, xidmət, əmtəə və işçi qüvvəsi axınına cəlb olunması səviyyəsini yüksəldir. Qarşıdakı dövrdə Azərbaycan bundan böyük dividendlər əldə edəcək".

**Beləliklə, bütün bunlar aydın göstərir ki, Azərbaycanın reallaşdırdığı layihələr Asiya və Avropa arasında enerji, nəqliyyat və ticarət əlaqələrinin daha da gücdənməsinə yeni təkan verir. Çünki Avropa ilə Asiya arasında körpü rolu oynayan Azərbaycan çox böyük tranzit imkanlara malikdir. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin həyata keçirilməsində əvəzolunmaz rola malik olması Azərbaycanı ticarət yollarının çoxunun birləşdiyi əlverişli logistik mərkəzə çevirir.**

***Ramil QULİYEV***

# Telefonla pensiyaçıların kart kodlarını öyrənən dələduzlar dəstəsi...

**Sosial şəbəkələrdə yayılan məlumatlara görə, bir qrup naməlum şəxs pensiyaçılara zəng vuraraq onlardan pensiya kartlarının nömrələrini istəyir. Naməlum şəxslər zəng edərək pensiyaçılara deyirlər ki, sizin pensiyanızın məbləğində artım var və həmin məbləği sizin kartınıza yükləmək üçün kartınızın nömrəsi lazımdır.**

Yəni naməlum adamların bu tip zənglərlə pensiyaçılara müraciət etməsi ilə bağlı xəbərlər həm elektron mediada, həm də sosial şəbəkələrdə ciddi rezonans doğurub.

Bu arada Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də kart nömrələrinin istənilməsi ilə bağlı pensiyaçılara xəbərdarlıq edib. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıblı bildirib ki, naməlum şəxslər pensiyaçılara zəng edərək onlara pensiya məbləğlərinin artdığını deyirlər və artan məbləğin guya pensiya kartlarına yüklənməsi üçün onlardan pensiya kartlarının nömrələrini istəyirlər.

"Bəzi KİV-də dələduzların pensiyaçı şəxslərə zəng edərək onlara pensiya məbləğlərinin artdığını bildirməsi, artan məbləğin guya pensiya kartlarına yüklənməsi üçün onlardan pensiya kartlarının nömrələrini istəmələri barədə məlumat yayılıb. Həmin zəng edənlərin məqsədi pensiyaçıları aldadaraq onların kartlarından vəsait oğurlamaqdır. Ona görə də pensiyaçıların diqqətinə çatdırırıq ki, heç bir pensiyaçıdan kart məlumatları istənilə bilməz və heç kimə də öz kart məlumatlarını verməsinlər. Onu da bildirim ki, pensiya artdığı halda heç bir pensiyaçıya bu barədə evinə zəng edib məlumat verilmir, sadəcə olaraq, artan məbləğ avtomatik şəkildə hesablarına köçürülür" - deyə F.Talıblı deyib.

Kart olmadan kod vasitəsilə pensiyaçıların hesabına necə daxil olmaq olar? Ümumiyyətlə, bununla bağlı hansısa texniki mexanizm mümkündürmü?

Tanınmış iqtisadçı-ekspert Ruslan Atakişiyev bizimlə söhbətində bildirdi ki, başqasının kodunu yazmaqla onun hesabına müdaxilə yalnız internet üzərindən ola bilər. R.Atakişiyev deyir ki,

***Ruslan Atakişiyev:** "Təkcə pensiya kartının kodu ilə pensiyaçıların hesabına daxil olaraq pulu mənimsəmək mümkün deyil"*



kartın üzərindəki nömrələrin şəkli çəkildikdən sonra kod daxil edilir və əməliyyat həyata keçirilir. "Yalnız pensiya kartının nömrəsini yazmaqla pensiyaçıların hesabına müdaxilə etmək çətindir, bunun üçün kartın şəkli olmalıdır. Bəzi dələduzlar bundan istifadə etməyə cəhd ediblər. Pensiyaçıların hesabından fırıldaqçıların pul çəkməsi halı o zaman mümkün ola bilər ki, pensiya almaq istəyən yaşlı insan pulu bankomatdan çıxara bilmədiyi üçün bəzi fırıldaqçılar onlara yaxınlaşır və kömək etmək adı ilə həmin kartın şəklini çəkir, kodu bildikdən sonra isə internet üzərindən o pulu əldə edə bilirlər. Bu hallar var. Yoxsa, başqa cür mümkün deyil. Təkcə pensiya kartının kodu ilə pensiyaçıların hesabına daxil olaraq pulu mənimsəmək mümkün deyil" - deyə R.Atakişiyev qeyd etdi.

***İradə SARIYEVA***

# Yeni il yolka aksesuarları "ceyran belinə" qalxdı...

**Yeni ilin gəlişinə sayılı günlər qalıb. Bu o deməkdir ki, artıq hər yerdə bayram hazırlıqları başlayır. Gül mağazaları, marketlər, bazarlarda yeni il aksesuarları alıcıların ixtiyarındadır. Lakin məhsulların daha ucuz satışı üçün paytaxtın müxtəlif ərazilərində yeni il yarmarkaları təşkil edilib.**

Əsasən metrostansiyaların çıxışında quraşdırılan bu çadırlarda bir məkanı bayrama hazırlamaq üçün hər şey var.

Bunu öyrənmək üçün üz tutduq yarmarkalara. Həftəiçi və səhər saatları olmasına baxmayaraq, "28 May" metrostansiyası ətrafındakı bayram çadırlarında alıcıların sayı heç də az deyil. Kimi şarlar şişirib deşik olub-olmadığına, kimi papağın uşağının başına uyğun olmasına, kimi də aksesuarların keyfiyyətinə baxır.

Yeni il bayramının əsas aksesuarlarından biri sayılan yolka ağacının satışına tək bayram çadırlarında deyil, şəhərin istənilən ərazisində rast gəlmək mümkündür. Müxtəlif ölçülü, xarici görünüşü belə fərqli olan yolka ağaclarının qiyməti də fərqlidir.

Bayram çadırlarında balaca ölçülü yolkaların qiyməti 10-15 manat, daha böyüklərin qiyməti isə 150-250 manat arasında dəyişir. Satıcıların sözlərinə görə, fərqin əsas səbəbi məhsulların istehsal olunduğu ölkələrə görədir: "Rusiya istehsalı olan yolkalar Çin istehsalı ilə müqayisədə daha bahadır. Bu da onun keyfiyyətinə təsir göstərir. Müştərilər qiymətinə görə Çin istehsalı olan yolkalara üstünlük verirlər".

Ancaq dükanlarda satılan irihəcmli yolkaların qiyməti isə çadırlara nisbətdə çox bahadır. Hətta elə yolka var ki, onun satış qiyməti 1800-2000 manat arasında dəyişir.

Bayram çadırlarında milad ağacını bəzəyən rəngli oyuncaqların qiymətləri 1 manatdan 10 manata qədər dəyişir. Qutu şəklində oyuncaqlar isə 2-45 manat aralığında satılır. Eyni zamanda, bəzək işıqları keyfiyyətinə və ölçüsünə görə 5-12 manat arasında satılır.

Məlumdur ki, 2020-ci il siçan ili üstündə təhvil olunacaq. Bayram aksesuarları alanlar gələn ilin simvolu olan siçana böyük maraq göstərirlər. Bu oyuncağın qiyməti ölçü və musiqili olmasına görə 3 manatdan 30 manata qədər dəyişir.

Metrostansiyaların ətrafında qurulan bayram

*"Müştərilər qiymətinə görə Çin istehsalı olan yolkalara üstünlük verirlər"*



çadırlarında qapıya vurmaq üçün yeni il aksesuarlarının qiyməti bəzəyinə görə dəyişir. Qeyd etdiyimiz bayram çələnginin qiyməti 40 manat, amma 35-ə olanlar da var və daha az gözəgəlimlidirlər. Əl işi olan oyuncaqların qiyməti 17 manatdan başlayır. Satıcı deyir ki, oyuncaqların ən bahalısının qiyməti 180 manatdır. Yeni il aksesuarlarının, oyunacaqlarının isə ən ucuzunun qiyməti 5-7 manatdan başlayır.

Üzərində 2020 yazılan corabların qiyməti isə 5 manatdan başlayır. Üstəlik, iki corab alana uduşlu kupon da verilir. Şaxta baba geyimləri, papaqlarının qiyməti 7 manatdan ucuz deyil. Oyuncaqların qutusunu 3-4 manata da almaq olar, 15-20 manata da. Bayramın əvəzolunmaz simvolu olan şaxta babanın qiyməti 15-50 manat, qar qız isə 20-35 manat aralığındadır.

Ümumiyyətlə, orta ölçülü Yeni il ağacını bəzəmək üçün maksimum 100-150 manat tələb olunur. Təbii ki, bu rəqəm alıcının istəyindən asılıdır. Yolkaların ölçüsü və oyuncaq miqdarına görə qiymətlər dəyişir.

***Günel CƏLİLOVA***

# Təhsilimizin bakalavr və magistr pilləsində təkrar fənlər problemi - nazirin narahatlığının əsasları...

## İlqar Orucov: "Bu sahədə təkrarçılığa yol verilməsi halları həqiqətən də mövcuddur"

**Azərbaycanda ali təhsil sistemində mövcud pillələr üzrə həyata keçirilən tədris prosesində təkrarçılığa yol verildiyi haqqında zaman-zaman məsələlər gündəmdə olub. Artıq bu problemin mövcudluğunu Təhsil naziri Ceyhun Bayramov da dilə gətirib. "Bakalavr və magistratura təhsili arasında təkrarçılığa yol verilməməlidir".**

*"...daha çox ixtisas fənlərinə yer ayrılmasını, ixtisasları haqqında onlara dərin biliklər verilməsini istəyirlər"*

C.Bayramov hesab edir ki, təkrar fənlər əvəzinə, magistratura təhsilinin məzmununa uyğun fənlərin keçilməsinə və məzmunun yenilənməsinə xüsusi diqqət yetirilməlidir.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov hesab edir ki, ali təhsil pillələrində mövcud olan bu kimi halların mövcudluğunun aradan qaldırılması üçün şərait tam yetişib. "Bu sahədə təkrarçılığa yol verilməsi halları həqiqətən də mövcuddur. Əslində, Azərbaycanda magistratura pilləsi xeyli geri qalır, bunun da səbəbi bakalavr pilləsində keçilən fənlərin burada təkrarlanmasıdır. Bu amil də bakalavrların magistratura pilləsinə meyl göstərməsinə mane olur. Reallığı nəzərə alaraq təəssüflə demək istəyirəm ki, Azərbaycanda magistratura pilləsi tələb olunan standartlara cavab vermir. Ona görə də magistraturaya qəbul qaydalarında da və ümumiyyətlə, magistratura təhsilində ciddi islahatlar aparılması vacibdir. Bakalavr magistraturaya daxil olur və görür ki, bakalavrda keçdiyi fənlər təkrarən burada da tədris olunur. Belə hal onların bu təhsil pilləsinə marağını azaldır. Əslində, magistratura pilləsi üçün xüsusi fənlər seçilməli və tədris edilməlidir ki, magistrlər üçün maraqlı olsun. Bu pillədə keçilən fənlər arasında ixtisas fənlərinə daha çox üstünlük vermək lazımdır, magistrantları lazımsız fənlərlə yükləmək gərək deyil. Çünki magistratura pilləsi artıq dünyada həm də bir elmi dərəcə kimi qəbul olunur. Bu belədirsə, magistraturada bakalavr pilləsində keçilən dərslərin təkrarlanmasına heç bir ehtiyac yoxdur. Magistratura pilləsində daha çox ixtisasın dərinləşməsi istiqamətində biliklərin əldə olunmasına ehtiyac var. Digər tərəfdən, nəzərə alsaq ki, magistratura pilləsi elmi tədqiqatlara ilkin başlanma mərhələsidir, burada daha çox magistrantın elmlə məşğul olmasına diqqət ayırmaq lazımdır, nəinki onu təkrarən tədris edilən fənlə yormaq".



İ.Orucov hesab edir ki, bu sahədə ciddi irədə ortaya qoyulmalıdır ki, magistratura sahəsində irəliləyişlər olsun. "Biz bu gün Lənkəran Dövlət Universitetinin bakalavrları ilə görüşdük, sonuncu kursda oxuyan bakalavrlar magistratura pilləsi ilə bağlı çox narahatlıq keçirirlər. Onlar magistratura pilləsində nələr baş verəcəyi, hansı yeniliklər olacağı ilə maraqlanırlar. Bu gün magistrlər bildirirlər ki, magistratura pilləsində verilən təhsilin səviyyəsi onları qane etmir, onlar burada daha çox ixtisas fənlərinə yer ayrılmasını, ixtisasları haqqında onlara dərin biliklər verilməsini istəyirlər. Magistrlər təkrarən onlara keçilən və onlar üçün əlavə yükə çevrilən fənlərdən can qurtarmaq, daha çox öz ixtisaslarına uyğun bilgilər almağı arzulayırlar.

Təhsil naziri C.Bayramovun bu istiqamətdə başladığı işlər çox zəruri işlərdir və gənclərin ürəyincədir. İrəli sürülən təşəbbüslər, görülən işlər onu deməyə əsas verir ki, magistratura pilləsində məzunlarımızın yekun nəticəsi həm Avropa standartlarına uyğunlaşdırılsın, həm dünyanın inkişaf etmiş elm tutumlu ölkələrinin magistratura pilləsində verilən təhsillə uyğunluq təşkil etsin. Azərbaycanda magistratura sahəsində təhsil o şəkildə olsun ki, bizim diplomlar, elmi işlər dünyada qəbul olunsun. Təhsil nazirinin istəyi budur" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

# ABŞ səfiri Salyanda...

**Dekabrın 17-də ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberger Salyan rayonuna səfər edərək Salyan Rayon İcra Hakimiyyəti başçısı Sevindik Hətəmovla görüşüb, Şirvan Milli Parkını gəzib və yerli tələbələrlə görüşmək üçün Salyan Amerika Guşəsini ziyarət edib.**



Şirvan Milli Parkında Azərbaycanın Qırmızı Kitabına daxil edilmiş ceyran kimi nadir növlərin və qışda bataqlıq ərazilərdə yuva qurmaq üçün buraya köçən gözəl flaminqoların olması cənab səfirdə böyük təəssürat oyadıb. Səfir flora və faunanın özlüyündəmühafizəsinin vacibliyini, həmçinin Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi və turizm imkanlarının inkişaf etdirilməsi səylərinin bir hissəsi olaraq qorunmasının önəmini vurğulayıb, Milli Parkların bu missiyadakı rolunu yüksək qiymətləndirib.

Səfir Litzenberger Salyan Mərkəzi Kitabxanasında yerləşən Salyan Amerika Guşəsinə də baş çəkərək, ərazidəki ibtidai və orta məktəb uşaqları ilə görüşüb. İngilis dilində aparılan söhbət zamanı uşaqlar səfirə Amerika Birləşmiş Ştatları, iki ölkə arasındakı fərqlər və oxşarlıqlar barədə sual vermək şansı əldə ediblər.

Amerika Guşəsi proqramına Azərbaycan Dillər Universitetində yerləşən və ən böyük olan Bakı Amerika Mərkəzi, Gəncə, Kürdəmir, Salyan və Xaçmaz şəhərlərində yerləşən regional Amerika guşələri də daxildir. Bu mərkəz və guşələr ingilis dilini təkminləşdirmək, Birləşmiş Ştatlar barədə məlumat əldə etmək, təhsil və mübadilə proqramları barədə daha ətraflı öyrənmək və Yaradıcılıq Məkanında yüksək innovativ texnologiyaları layihələrində iştirak etmək imkanlarını yaradır. Guşələr, həmçinin, mühazirələr, danışıq klubları, hər bir icma nümayəndəsi üçün pulsuz internet və bir sıra başqa fəaliyyətlərini də təqdim edir.

**Salyan Amerika Guşəsi barədə daha ətraflı məlumat əldə etmək üçün https://www.facebook.com/SalyanAC/Face book səhfəsinə daxil ola və yaxud ABŞ Səfirliyinin Məlumat Mərkəzinə 488 33 00, daxili 3617 nömrələrinə zəng edə bilərsiniz.**

**Azərbaycanın investisiya yatırımının adambaşına həcminə görə ən çox və ən az yatırım edilən şəhər/rayonlar məlum olub. Uzun müddət bu siyahıya rəhbərlik edən paytaxt Bakı bu dəfə ikinci yerə düşüb. 2019-cu ilin ilk 9 ayının nəticələrinə görə, adambaşına düşən investisiyanın həcminə görə isə ölkədə birinci yerə Xızı rayonu çıxıb.**

# İnvestisiyaların həcminə görə Xızı rayonu Bakını üstələdi...



## Natiq Cəfərli: "İnvestisiyaların bölgələr üzrə yatırılmasında hər il fərqli mənzərə müşahidə olunur"

Bakının yaxınlığındakı ən kiçik rayonlardan birində ilk 9 ayda adambaşına düşən yatırımın məbləği nə az, nə çox - 7263 manat olub. Müqayisə üçün bildirək ki, bu, Bakının göstəricisindən 2,6 dəfə, ölkə üzrə orta göstəricidən (1011 manat) isə 7,2 dəfə artıqdır.

Adambaşına yatırımın həcminə görə ikinci yeri Bakı şəhəri - 2 771 manat, üçüncü yeri isə Siyəzən rayonu - 1 395 manat tutur. Digər bütün rayon və şəhərlərdə adambaşına yatırımların həcmi 1000 manatdan aşağıdır.

Adambaşına yatırımın həcminə görə ən pis vəziyyət (işğal altında olanları nəzərə almayanda) Saatlı, Neftçala, Bərdə və Ağsudadır. Bu rayonlarda adambaşına yatırımlar 100 manatdan da aşağıdır.

Qeyd edək ki, iqtisadi artım və azalma bölgələrə cəlb olunan investisiyaların həcmi ilə bağlıdır. Danılmaz faktdır ki, Bakı hər zaman iqtisadi aktivliyə görə seçilib. Digər rayonların da bu sahədə yüksək nəticə göstərməsi lazım idi. Bu istiqamətdə görülən işlər sayəsində artıq bölgələrdə iqtisadi aktivlik müşahidə olunur.

Məlumdur ki, investisiyaların cəlb olunması yeni yaradılan iş yerlərinin sayının artmasına səbəb olub. Vətəndaşların işlə təmin olunması baxımından ölkənin bütün ərazisində iqtisadi aktivliyin qeydə alınması üçün şərait yaradılmalıdır.

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, investisiyaların bölgələr üzrə yatırılmasında hər il fərqli mənzərə müşahidə olunur. Bu il Xızı yüksək göstərici ilə paytaxt Bakını keçib: "İnvestisiyaların ən çox yatırıldığı ərazilər üzrə Xızının ilk yerdə olması sevindirici olsa da, bu hal yalnız bu il müşahidə olunacaq. Məlumat üçün bildirim ki, bu il Xızıda bir sıra iqtisadi layihələr həyata keçirildi. Xızının əhalisi də digər bölgələrlə müqayisədə azdır. Bakının əhalisi az qala 4 milyona çatır".

*"İnvestorlar rayonların iqtisadi xəritəsinə, pasportuna baxarkən..."*

Həmsöhbətimizin sözlərinə görə, investisiyanın regionlar üzrə ayrılması mərkəzdən - Bakıdan verilən qərar əsasında bəlli olur: "Prezident İlham Əliyev dəfələrlə öz çıxışında bildirib ki, regionlar investisiya cəlb etməkdə maraqlı olmalıdırlar. Hansı bölgədə investisiya cəlbi aşağı səviyyədədirsə, bu, rayon rəhbərliyinin işinə səhlənkar yanaşması ilə bağlıdır".

İqtisadçı hesab edir ki, bölgələrə investisiya cəlb olunması üçün həm mərkəzləşdirilmiş qaydada bəzi məsələlər həllini tapmalı, eyni zamanda, Ümumdünya Ticarət Təşkilatına da üzv olmalıyıq. Hər bir rayonun öz iqtisadi pasportu olmalıdır. İqtisadi pasportda hansı sahələrin perspektivli olduğu və imkanların olduğu dəqiq şəkildə qeyd olunmalıdır: "İnvestorlar rayonların iqtisadi xəritəsinə, pasportuna baxarkən özünə uyğun fəaliyyət növü aşkar etməlidirlər. Azərbaycanda isə bununla bağlı problem var. Təəssüf ki, ölkədə bölgələr üzrə dəqiq işlənmiş, investisiya cəlbediciliyi üçün əhəmiyyətli olan iqtisadi pasport yoxdur".

**Günel CƏLİLOVA**

---

**Ölkəmizdə toxumçuluğun inkişafı, yeni bitki sortlarının meydana çıxarılması sahəsində müəyyən problemlərin olduğu məlumdur. Hətta mütəxəssislər bildirirlər ki, ölkənin əlaqədar elmi-tədqiqat institutlarında bu sahədə çox cüzi işlər görülür.**

# Azərbaycanda ilk - xəstəliyə və quraqlığa davamlı toxum istehsalı...



## Atif Zamanov: "Toxumçuluğun inkişaf etdirilməsi asan məsələ deyil, bu, illərlə başa gələn bir prosesdir"

Onların yanaşmalarına görə, bu gün Azərbaycanda toxumçuluğun inkişafı, seleksiyası, artırılması, yeni növlərin yaradılması işləri daha geniş səviyyədə reallaşdırılmalı olduğu halda, bu sahədə işlər elə də sürətli getmir.

Ən çox irada məruz qalan faktor xarici ölkələrdən ölkəmizə gətirilən toxumlar, tinglərdir ki, onlar hesab edirlər ki, başqa iqlimə xas olan torpaqlara məxsus toxumların ölkəmizdə inkişafı elə də perspektivli deyil. Bütün bunlarla yanaşı, əks fikirlərin də şahidi oluruq.

Bu gün Azərbaycanda yeni növ toxumların yetişdirilməsi, artırılması, inkişafı gündəmə gəlib. Əlbəttə, yeni yaradılan toxum növləri ölkəmizin iqlim şəraitinə uyğun olmalıdır.

Onu da bildirək ki, Kənd təsərrüfatı naziri İnam Kərimov Bakıda keçirilən "Azərbaycanda ərzaq və kənd təsərrüfatında Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) yerinə yetirilməsində özəl sektorun cəlb olunması və investisiya fəallığının təmin edilməsi" mövzusunda beynəlxalq konfransda bildirib ki, ölkəmizdə quraqlığa və xəstəliyə davamlı yeni toxum sortları yaradılacaq. Nazir bildirib ki, bu məqsədlə dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilir: "Aidiyyəti dövlət orqanları, o cümlədən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi müvafiq tədbirlər planı müəyyənləşdirir, eləcə də Kənd Təsərrüfatı Nazirliyi tərəfindən quraqlığa və xəstəliyə davamlı toxum sortlarının əldə edilməsi istiqamətində iş aparılır" - deyə qeyd edən nazirin sözlərinə görə, hazırda müasir toxumçuluq müəssisələrinin yaradılması istiqamətində də iş gedir.

Xəstəliyə və quraqlığa davamlı toxum sortlarının yaradılması üçün Azərbaycanda nə kimi şərait var? Bu sahənin inkişafı asan, yoxsa çətin başa gəlir?

Əkinçilik Elmi-Tədqiqat İnstitutunun istehsalat üzrə direktor müavini, biologiya üzrə fəlsəfə doktoru, dosent Atif Zamanov "Bakı-Xəbər"ə bildirdi ki, bu gün Azərbaycanda yeni növ toxum sortlarının yaradılması üçün geniş şərait var. A.Zamanovun sözlərinə görə, toxumçuluğun inkişafı çətin proses olsa da, həyata keçirmək mümkündür: "Toxumçuluğun inkişaf etdirilməsi asan məsələ deyil, bu, illərlə başa gələn bir prosesdir. Azərbaycanda toxumçuluğun inkişafı və yeni toxum sortlarının yaradılması üçün hər cür şərait var. Bizim beynəlxalq toxumçuluq mərkəzləri ilə sıx əlaqələrimiz və müqavilələrimiz var. Əməkdaşlıq etdiyimiz mərkəzlərdən hər il 1000, 1500 nümunə alırıq və həmin nümunələri respublikamızın müxtəlif bölgələrində, Tərtərdə, Qobustanda, Cəlilabadda və başqa yerlərdə əkirik. Bu torpaqların bəziləri suvarılan sahədir, bəziləri dəmyədir, bəziləri yarımdəmyədir, yəni bu torpaqlarda həmin toxumların sınağını keçiririk. Burada toxumun bütün əlamətləri öyrənilir, tədqiq edilir, biz onları tam öyrəndikdən sonra toxumları seçirik. Elə toxumlar var ki, xəstəliyə, quraqlığa davamlıdır, amma məhsuldarlığı azdır, yaxud da, əksinə, xəstəliyə, quraqlığa davamsızdır, lakin məhsuldarlığı çoxdur. Biz bu cür sortları tarazlaşdırırıq, hibridləşdiririk, onların içindən fərd-fərd seçib üzərində uzun illər işləyirik və ortaya yeni bir sort qoyuruq".

*"Azərbaycanda toxumçuluğun inkişafı və yeni toxum sortlarının yaradılması üçün hər cür şərait var"*

A.Zamanov hesab edir ki, bizim yaxşı toxum sortları da var və bu sortların yetişdirilməsi davamlı xarakter alıb. O bildirdi ki, yaxşı sortlar gəldikcə pis, keyfiyyətsiz sortlar tozluq sistemindən çıxarılır. "Bizim institutda əsasən dənli və yem bitkiləri üstünlük təşkil edir. Taxıl, arpa, qarğıdalı, yem bitkilərindən yonca, soya, xaşa bizim sahəyə daxil olan bitkilərdir".

A.Zamanovun sözlərinə görə, xaricdən Azərbaycana gətirilən toxumlar əsasən sınaq xarakterlidir. Yüksək keyfiyyətə malik sortların seçiklərini, həmin sortlarla yerli sortların hibridləşdirilməsini həyata keçirdiklərini deyən müsahibimiz bildirdi ki, bunların içindən də qaneedici fərdləri seçərək onun üzərində iş aparılır: "Bizim özümüzün aborigen buğda sortlarımız var ki, onlar quraqlığa, xəstəliyə davamlıdır. Biz həmin sortları da hibridləşməyə daxil edirik. Çünki həm onların məhsuldarlığı azdır, həm də boyları hündürdür. Onlardan toxumçuluqda istifadə etmirik, hibrid kombinasiyalarda istifadə edirik. Çalışırıq ki, onların yaxşı xüsusiyyətləri bizim aldığımız yeni formada özünü göstərsin".

**İradə SARIYEVA**

# Azərbaycan otellərində bir Yeni il gecəsinin qiyməti - Dubayı, Türkiyəni az qala 3-5 dəfə üstələyir

**2020-ci ilin gəlməsinə sayılı günlər qalıb. Artıq şəhərdə, mağazalarda Yeni il ab-havası hiss edilməyə başlayıb. Eyni zamanda, şou-biznes nümayəndələrinin də bayram gecəsi hansı restoranda, oteldə çıxış edəcəyi bəlli olub.**

Ölkədə fəaliyyət göstərən dəbdəbəli otellər arasında araşdırma apardıq. Araşdırma nəticəsində məlum oldu ki, bayramqabağı otellərin qiyməti birə-beş artıb. Hər il olduğu kimi, yenə də turizm sektorunda qiymətlər Yeni il ərəfəsində "od tutub yanır". Həm paytaxtda, həm də turistik bölgələrimizdəki istirahət mərkəzləri, otellər qiymətləri fantastik həddə qaldırıblar.

Yeni ilə 1 ay qalmış, bölgələrdəki lüks otellərdə qiymətlər bahalaşıb. Baxmayaraq ki, ildən-ilə otellərin sayı da artır, lakin qiymətlər də hər il, demək olar ki, 10 faiz qalxır. Hazırda ölkəmizdə təklif olunan qiymətlər Türkiyə, Dubay, hətta Avropadakı tariflərdən belə yüksəkdir. Müqayisəli mənzərəni sizə təqdim edirik.

Şəkidə yerləşən beşulduzlu "Marxal Resort & SPA"da qiymətlər ürəkaçan deyil. 3 gün 2 gecə burada standart otaqda qalmaq 1 nəfər üçün 1610, 2 nəfər üçün isə 2035 manatdır.

"Şamaxı palace"da qiymətlər Şəkidən geri qalmır. Burada dekabrın 31-dən yanvarın 2-nə kimi qalmaq 1280 manatdır. Qiymətə qidalanma daxildir.

"Lankaran Springs Resort" dekabrın 31-dən yanvarın 2-nə kimi istirahət paketi təqdim edir. Qiymət səhər yeməyi daxil 830 manatdır. Eyvanlı otağın dəyəri isə 990 manat təşkil edir.

"Qax El Resort" - 850 (2 nəfər), "Qalaaltı" - 1050-3500 (2 nəfər), "Quba Palace" - 1669 (2 nəfər), "Şahdağ Hotel & SPA" - 1139 (2 nəfər), "Park Chalet" - 1529 (2 nəfər), "Pik Palace" - 1799 (2 nəfər) manatdır.

Demək olar ki, bütün otellərin paketlərinə gün ərzində 3 dəfə açıq bufet qidalanma, Yeni il axşamı açıq bufet menyusu (spirtli və spirtsiz içkilər), uşaqlar üçün xüsusi əyləncəli proqramlar (şaxta baba və qar qız), maraqlı oyunlar, 31 dekabr və 1 yanvar canlı musiqi və Yeni il günü müxtəlif müğənnilərin iştirakı ilə əyləncə proqramlarının təşkili, atəşfəşanlıq, DJ/diskoteka və s. daxildir.

Paytaxt Bakıdakı bəzi otellər isə Yeni il gecəsi şənliyi ilə bağlı qiymətlərini açıqlayıblar. Belə ki, "JW Marriott Abşeron Hotel"də yeni il gecəsi yeməyi sizə adambaşı 220 AZN-ə başa gələcək. "Four Seasons Hotel"də isə bu qiymət 250 AZN-dir. Bu otel limitsiz spirtli içki istəyənlərdən isə 500 AZN tələb edəcək.

Yeni ili xaricdə qarşılamaq istəyənlər üçün də qiymətləri araşdıranda maraqlı mənzərə ilə qarşılaşdıq. Dekabrın son gecəsini və Yeni ilin ilk gününü Avropada - Fransa, Belçika və Niderland kimi ölkələrdə keçirmək istəyənlər büdcələrindən 1000-2000 dollar (1700-3400 AZN) ayırmalı olacaqlar.

Türkiyənin məşhur şəhərlərindəki otellərin qiymətləri 500 dollardan (850 AZN) başlayır. 700 dollardan (1200 AZN) başlayan qiymətlərlə isə Yeni ili Dubayda qarşılamaq mümkündür.

Paytaxtda və bölgələrdə fəaliyyət göstərən otellər daha çox qazanc əldə etmək üçün xarici ölkələrlə müqayisədə qiyməti bir neçə dəfə qaldırıblar. Təbii ki, bu hal turizmin inkişafına mənfi təsir göstərir. Ekspertlər hesab edirlər ki, otellərin qiyməti qonşu ölkələrlə müqayisədə daha ucuz olarsa, o zaman ölkəyə gələn turistlərin sayı daha çox olar.

Turizm üzrə ekspert Elgün Babayevin sözlərinə görə, bölgələrdə fəaliyyət göstərən otellərin çox az hissəsi gündə 3 dəfə qidalanma təklif edir. Göstərilən qiymətlərə isə yalnız səhər yeməyi daxildir. Halbuki, 1000 manatdan başlayan qiymətlərlə qarşılama, yola salma və 3 dəfə qidalanma da daxil olmaqla, 5 gün ərzində Yeni ili Türkiyədə keçirmək mümkündür: "Qiymətlərin baha olmasına əsas səbəb bölgələrdə ekonom otellərin sayının az olması və hər dəfə bayram ərəfəsində ölkəyə daha çox turistin gəlməsidir. Qiymətlərin bahalılığına baxmayaraq, hazırda bölgələrdə əksər oteldə yerlərin çoxu satılıb".

Azərbaycan Turizm Assosiasiyası (AzTA) sədrinin müşaviri Müzəffər Ağakərimov bildirdi ki, əslində, bu, tələbatın çox olması deyil, Yeni ili keçirmək üçün otellərin və nömrələrin sayının az olmasından doğur: "Orada fərqli büdcələrə malik olan otellər inşa olunsaydı, tələbat tam ödənilərdi. Çünki imkanı olmayanlar heç müraciət də etmirlər. Səbəb isə qiymətlərin baha olmasıdır. Bahalığın əsas səbəbi isə rəqabətin düzgün aparılmamasıdır. Otellərin sayı çox olarsa, qiymətlər avtomatik düşər. Ootellərin sayının çox olması üçün isə sahibkarlar üçün güzəştli şərtlər ortaya qoyulmalıdır. Əgər sahibkarlara güzəştli şərtlərlə otel inşa etməyə şərait yaradılarsa, həmin otellər tez zamanda tikilər. Çünki sahibkarlar üçün indi yaşayış evi tikmək daha sərfəlidir, çünki pulunu öncədən alırlar. Bunun üçün də sahibkarları otel tikməyə, həm də aşağı büdcəli otellər tikməyə təşviq etmək lazımdır. Hazırkı qiymətlər reallığa uyğun deyil. Çünki həmin yerlərdə göstərilən xidmət ödənilən qiymətə müvafiq deyil. Yüksək səviyyəli xidmət göstərilməlidir ki, müştəri ödədiyi pula uyğun xidmət alsın və etiraz etməsin. Qiymət yüksək, xidmət isə aşağı səviyyədədirsə, o zaman bu, hər bir müştəridə narazılıq doğurur. Bu məsələ çox önəmlidir".



***Elgün Babayev:*** *"...əsas səbəb bölgələrdə ekonom otellərin sayının az olması..."*

***Müzəffər Ağakərimov:*** *"Bahalığın əsas səbəbi isə rəqabətin düzgün aparılmamasıdır"*

***"Fly" turizm agentliyinin rəhbəri Mamed Əliyev:*** *"Ölkə daxilində otel və istirahət mərkəzlərində qiymətlərin baha olması səbəbindən vətəndaşlarımız daha çox xaricdə Yeni il şənliyini keçirməyə üstünlük verirlər"*

"Fly" turizm agentliyinin rəhbəri Mamed Əliyev isə qeyd etdi ki, ölkə daxilində otel və istirahət mərkəzlərində qiymətlərin baha olması səbəbindən vətəndaşlarımız daha çox xaricdə Yeni il şənliyini keçirməyə üstünlük verirlər: "Hazırda Yeni il şənliyi üçün ən populyar istiqamət Dubay və İstanbuldur. Dubayda 2 nəfər üçün 31 dekabr da daxil olmaqla, 4 gecəlik istirahət 1000 dollara başa gəlir. Azərbaycanın bölgələrində isə bundan daha bahadır.

Bu qiymətə ancaq səhər yeməyi və qalan bütün şərtlər, gediş-dönüş bileti də daxildir. İstanbula da Azərbaycandan turpaket var, iki nəfərin 4 gecə 5 günlük səfəri 900 dollara başa gəlir. Yemək menyusuna, sadəcə, səhər yeməyi daxildir".

***Günel CƏLİLOVA***

№ 225 (4123) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

18 DEKABR 2019-cu il

www.baki-xeber.com

# Finlandiya avropalılara süni intellektin əsaslarını öyrədəcək



**Finlandiya Avropa İttifaqı ölkələrinin bütün rəsmi dillərinə tərcümə ediləcək onlayn kurs vasitəsilə Avropa əhalisinin 1 faizinə süni intellekt sahəsində əsas bacarıqları öyrətmək niyyətindədir.**

"İctnews.az" bildirir ki, Avropa İttifaqı təşkilata üzv ölkələrin ərazilərində süni intellektin tətbiqinin geniş yayılmasına çağırır. Bu, Avropa şirkətlərinə Asiya ölkələrində və ABŞ-da rəqiblərlə mübarizəyə kömək edə bilər. "Bizim investisiyalar üç məqsəd güdür: biz Aİ vətəndaşlarının gələcəkdə rəqəmli biliklərə yiyələnməsini, süni intellektin praktiki anlayışının yaxşılaşdırılmasını və Avropanın rəqəmli liderliyinin möhkəmləndirilməsini istəyirik", - Finlandiyanın Məşğulluq naziri Timo Harakka bildirib. Onun sözlərinə görə, Finlandiyanın Avropa İttifaqı Şurasında sədrlik müddəti başa çatanadək ölkə konkret təkliflə çıxış etmək niyyətindədir. "Rəqəmli savadlılığın inkişafı hazırda Avropa və Finlandiya qarşısında duran təxirəsalınmaz vəzifələrdəndir", - nazir qeyd edib.



## NASA yeni qasırğa kəşf edib

ABŞ Milli Aeronavtika və Kosmos İdarəsi (NASA) Yupiter planetində nəhəng qasırğa kəşf edib. "Milli.Az" xəbər verir ki, alimlər qasırğanı "Yuno" kosmik gəmisinə kritik manevr etdirməyə çalışarkən təsadüfən görüb. Qasırğanın ölçüsü ABŞ-ın Texas ştatı boydadır. Bu günə qədər Yupiterdə kəşf edilən 6 qasırğadan daha böyük olan bu tapıntı planetdə yeni hadisələrin baş verdiyinə işarə kimi şərh edilir. Qasırğanın 300-ə yaxın yaşı olduğu bildirilir. Qeyd edək ki, "Yuno" kosmik gəmisi 5 avqust 2011-ci ildə kosmosa göndərilmişdi. O, 4 iyul 2016-cı ildə Yupiterin orbitinə çatmışdı.

## Con Lennonun eynəyi 170 min dollara satıldı

Məşhur "Beatles" qrupunun gitaristi Con Lennon eynəyi hərraca çıxarılıb. "Axşam.az" bildirir ki, sənətçinin qrupun digər üzvü Rinqo Starın maşınında unutduğu güneş eynəyi 170 min dollara alıcı tapıb. Lennonun şəxsi əşyası qrupun sürücüsü Alan Herrinq tərəfindən hərraca təqdim edilib.

## Elan

Qurbanov Sədi Məhərrəm oğlunun adına verilmiş №0900086 nömrəli çıxarış itdiyi üçün etibarsız sayılır.

# Şəhərlərə kimyəvi maddələrə dözümlü həşəratlar daraşır



**Artıq iri paytaxtlara, şəhərlərə dərmanlara və kimyəvi maddələrə dözümlü həşəratlar dolur.**

"Medicina.az" bildirir ki, yaşayış binalarının altında olan mağaza, market, kafe, restoranların çox olması həşəratların sevimli məskəninə çevrilir. Eləcə də, hər tinbaşı zibil qalaqları tarakanları çoxaldır. "Medicina.az" xəbər verir ki, sanitar-dezinfeksiya-edici vasitələrdə qənaət edən, ucuz və keyfiyyətsiz dərmanların alınması vəziyyəti qəlizləşdirir. Tarakanlarda bu vasitələrə qarşı artıq dözümlülük var. Tarakan və həşəratlara qarşı uzun müddət eyni dərmanın istifadəsi rezisdentlik yaradır və o dərman təsir etmir. Getdikcə super güclü olan həşəratlar üçün daha bahalı, yeni dərmanlar tətbiq olunmalıdır. "Bu vaxta kimi iri şəhərlərdə bu qədər tarakan yox idi, olsa da sahibkarlar və təsərrüfat işçiləri normal dezinfeksiya işi aparırdılar. Amma indi market, mağaza, restoran, kafe sahibləri öz bildikləri metoddan istifadə edir, nəzarət zəifdir. Əgər aşağı mərtəbədəki restoran sahibi onun mətbəxi və anbarında yaşayan tarakanları təmizləyib məhv etməsə, yuxarı mərtəbədəki sakinlərin mübarizəsi mənasızdır, tarakanlar yenə gələcək.

**Zərərverici həşəratlarla mübarizə metodlarını dəyişmək lazımdır. Yaxşı olar ki, bor turşusu və tərkibində bor və diatomit olan maddələr tətbiq edilsin. Bu maddələr dəhşətli səslənir, orqanizmə ziyanlıdır, amma düzgün istifadə edilsə, super tarakanlardan xilas ola bilərsiniz".**





**Qoç** - Xoş və faydalı tanışlıqlarınız olacaq. Bu gün kommersiya fəaliyyəti və müqavilələr bağlamaq üçün də yaxşıdır. Önəmli sənədləri imzalamaq olar. Xırda detallara diqqət yetirmək önəmlidir.



**Buğa** - Səliqə-sahman yaratmaq olar: bir çoxları prioritetləri və həyatda tutduqları istiqamətləri nəzərdən keçirmək arzusunda olacaqlar. Hətta, ən ünsiyyətcil adamlar ehtiyat edir, gizlənməyə, təmasları azaltmağa cəhd edirlər.



**Əkizlər** - Maliyyə nöqteyi-nəzərdən uğurlu gündür, pul gəlirləri ola bilər. Alış-veriş də uğurlu olacaq. Yaraşıqlı, lakin bir o qədər də önəmli olmayan əşyalar ala bilərsiniz. Bu günü dostların əhatəsində keçirmək də xoşdur.



**Xərçəng** - Bu günə xüsusi plan qurmağa dəyməz, o, rutin və cari işlərin həlli üçün daha münasibdir. Ancaq çətin ki, bu cür düşüncələr axşam da davam etsin, günün ikinci yarısı emosional fonun qeyri-sabitliyi səbəbindən qara fikirlər üstün gələcək.



**Şir** - Yaradıcı potensialınız yüksək deyil, daha çox yoxlanılmış metodlardan istifadə etməyə çalışırsınız. Mübahisələrdə nöqteyi-nəzərinizi müdafiə etmək xoşunuza gəlmir, bu səbəbdən güzəştə gedirsiniz və tezliklə bu əməlinizə görə peşman olacaqsınız.



**Qız** - Qərarlı və tez hərəkət edin. Təşəbbüslərinizə görə cəzalanmayacaqsınız. Parlaq şəxsiyyətlər öz pərəstişkarlarını tapacaqlar. Ekstravaqant hərəkətlər əks cinsin nümayəndələrinin diqqətini cəlb edəcək.



**Tərəzi** - İşgüzar ünsiyyət üçün yaxşı gündür, vacib görüşlər təyin edə bilərsiniz, boşa getməyəcək. Unutmayın ki, yalnız gəlir əldə etmək üçün deyil, həm də ictimai məqsədlərə yönəlmiş layihələr sizin üçün daha perspektivlidir.



**Əqrəb** - Hərtərəfli ehtiyatlı olmağınız tövsiyə olunur. Lazımsız xərclərdən, spontan alış-verişlərdən qaçmaq lazımdır. Bu gün dostlarınız ilə görüş və köhnə əlaqələrin bərpası üçün də uyğundur.



**Oxatan** - Yalnız öz baxışlarınıza etibar edirsiniz və reallığı qəbul etmək istəmirsiniz. Bu da düzəldilməsi çətin olan ciddi yanlışlıqlara səbəb ola bilər. Eqoizm və həddən artıq qürurluluq sizə mənfi tərəfdən xidmət edəcək.



**Oğlaq** - Qarışıq, ağır bir gündür. İtkilərin olması ehtimalı böyükdür. İtkilərə yol verməmək üçün olduqca ehtiyatlı olmalısınız. Ətrafınızda baş verənlərə həddən artıq sərt reaksiya verirsiniz. Hər bir xoşagəlməz hadisəni fəlakət kimi qəbul edirsiniz.



**Dolça** - Təhriklərə uymasanız, həmən təslim olmasanız, çox şeyə nail ola bilərsiniz. İşgüzar danışıqları uğurla bitirə, sizə böyük köməyi dəyə biləcək bir insanın dəstəyini qazana bilərsiniz.



**Balıqlar** - Balıqlar üçün bu gün əlverişli emosional fonu ilə seçilir. Əhvalınız yaxşıdır, optimistsiniz. Ərtafınızda kimsə ruhdan düşürsə, sizin yumor hissiniz ona yardımçı olur.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Xərçəngi yox edən müalicə üsulu tapıldı



**Xərçəng ən dəhşətli xəstəliklərdən biridir, onu məğlub etmək çox çətindir.**

Lakin daim elmi axtarışlarda olan alimlər müalicənin daha effektiv yolunu tapıb. "Milli.Az" xəbər verir ki, Filippin Universitetinin alimləri buynuz ilbizlərindən hazırlanan ekstraktların xərçəng hüceyrələrinin yayılmasının qarşısını aldığını müəyyənləşdirib. Ekstrakt qan damarlarının böyüməsinə maneə törədir ki, bu da xərçəng hüceyrələrinin aclığına səbəb olur və böyüməsini dayandırır. Maddə xərçəng hüceyrələrini birbaşa məhv etmir, lakin onların məhv olması üçün münbit şərait yaradır.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.